

## Media islahatları mövzusunda konfrans keçirildi

*"Dərinləşən media islahatları: Yeni hədəflərə doğru" mövzusunda konfrans və MEDİA-nın yeni veb-saytının təqdimatı keçirilib. "Unikal" xəbər verir ki, konfrans Azərbaycan Dövlət himinin səsləndirilməsi ilə açıq elan olunub. Beynəlxalq media və ictimaiyyət nümayəndələri, xarici və yerli media ekspertlərinin iştirak etdiyi konfransın təşkil edilməsində məqsəd Azərbaycan mətbuatının...*

Səh.3


# UNİKAL

№26 (2111) 22 iyul 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




## "Ermənistan rəhbərliyini sülhə məcbur edəcəyik"

### Səməd Seyidov: "Ermənilər gərək müstəqil olsunlar ki, bizimlə ciddi söhbətlər apara bilsinlər"

*İyulun 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla erməni həmkarı Ararat Mirzoyan arasında Tbilisidə keçirilən görüşdə bir sıra məsələ müzakirə olundu. Artıq tərəflər arasında deputatların görüşlərinin təşkil edilməsi təklif olunur. Hətta Azərbaycan və Ermənistan Parlamentlərarası İşçi Qrupunun yaradılacağı barədə də fikirlər var. Avropa Şurası Parlament Assambleyasının sessiyaları zamanı Azərbaycanın nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bununla əlaqədar təklif səsləndirib. Komitə sədri erməni deputatları danışıqlar masasına dəvət edib, amma onlar bununla razılaşmayıb. Məsələ ilə bağlı Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri...*

Səh.9

Səh.2



## Büdcə vəsaitlərinin xərclənməsi ilə bağlı araşdırma aparılır

## "Azərbaycan "Dəmir yumruğ"u işə salmadan ermənilərin ağlı başına gəlməyəcək"



*Hərbi ekspert Ədalət Verdiyev "Unikal"a müsahibə verib. O, hərbi sahədə aparılan struktur islahatlarından, erməni silahlılarının sərhəddə vəziyyəti gərginləşdirməsindən, o cümlədən qarşı tərəfin döyüş mövqeləri yaratması və s. məsələlərdən danışıb.*

Səh.4

## Dövlət Turizm Agentliyi tənqid hədəfində



*Ölkə başçısının 20 aprel 2018-ci il tarixli "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam"ına əsasən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əsasında Dövlət Turizm Agentliyi yaradıldı.*

Səh.7

## Maliyyə Nazirliyi Səfər Mehdiyevin dövrünü yoxlamağa başladı



*Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti Dövlət Gömrük Komitəsində yoxlamalara başlayıb. "Unikal"ın əldə etdiyi məlumata görə, Dövlət Xidməti tərəfindən Komitənin 2018-2022-ci illərdəki maliyyə təsərrüfatı araşdırılır. Qeyd edək ki, həmin dövrdə DGK-nin sədri Səfər Mehdiyev olub.*

Səh.4

# Brilliant Dadaşovanın pulunu alıb, konsertinin görüntülərini vermədilər

***Xalq artisti Brilliant Dadaşova Rusiyada verdiyi konsertinin görüntülərini ala bilmir.***

Müğənni bu haqda sosial şəbəkə hesabında yazıb. O bildirib ki, əlində ancaq telefonla çəkilən videolar qalıb: "Moskvada yaşayan və Azərbaycanı görmədən musiqimizə böyük rəğbət bəsləyən pianoçu, bəstəkar, cazmen Stanislav Pinxasovla oradakı konsertimdə ekspromt... O mənim heyranım olduğunu deyib, müşayiət etməyi xahiş etdi. Mən də məmnuniyyətlə oxudum. Böyük kütlə artıq belə musiqiləri dinləməsə də, biz onu qoruyacağıq. Söz versələr də heyif ki, Moskva konsertimdən görüntüləri bizə vermədilər, əlimizdə sadəcə telefona çəkilmiş az görüntü var. Halbuki böyük bir yaradıcı heyət, çəkiliş qrupu çalışırdı. Qonorarlarını da təşkilatçı xanıma yolladım, amma xəbər çıxmadı...". Qeyd edək ki, Dadaşovanın sözügedən konserti 2019-cu ildə baş tutub.



# "Qəsdən ağ saçlarımı və makiyajsız halımı paylaşıram" - Elnarə Xəlilova

***"Zaman-zaman qəsdən ağ saçlarımı və makiyajsız halımı paylaşıram ki, insanlar unutmasınlar biz də qocala bilirik. Bunu tez-tez etdiyim üçün də heç vaxt bəhsə bəhs eləmədim, eləmərəm də".***

Bu sözləri müğənni Elnarə Xəlilova "Deməsəm olmaz" proqramının instaqram hesabında yazıb. İfaçı bir müddət əvvəl makiyajsız görüntüsünü yayımlaması haqda fikirlərini bölüşüb. Elnarə Xalq artisti Tünzalə Ağayevanın da makiyajsız görüntüsünü yayımlaması ilə müqayisə edilməsini belə şərh edib: "Tünzalə xanımın da bunu etdiyindən heç xəbərim yox idi, amma mən bilən o da tez-tez paylaşır. Biz ikimiz də tərəzi bürcündənik, odur ki, həqiqətləri göstərməkdən çəkinmirik".

E.Xəlilova musiqi məktəbinin uşaqları ilə tez-tez gündəmə gəlməsi məsələsinə isə belə cavab verib: "Yeni klipim 10 gün öncə işıq üzü görüb. "Lətifəmiz", "Qatarlar", "Uzaqda" mahnılarım... "Uzaqda" adlı mahnıma Samirə ilə klip çəkdirdim, ukraynalı rejissora həvalə etdik. Elə həmin ərəfələr sifarişlə hamiləlik xəbərlərini çıxardılar... Sadəcə təəssüf ki, efirimiz o qədər də ürəkaçan deyil və mən mütəmadi olaraq hər ay çıxardığım bu mahnıları oxumağa bəzən yer tapmıram. Amma yutub kanalıma abunə olmaq kifayət edir ki, yaradıcılığımla bağlı bütün yeniliklərdən xəbərdar olasınız. Yaşıdlarım arasında özüm kimi 2-ci məhsuldar birisini tanımıram. Çünki bu nəticələri verən ikinci biri yoxdur".



# Elşad Qarayev: "Cavanşir Məmmədovun başının güllәsi çatmır"



***Müğənni Elşad Qarayevin Əməkdar artist Cavanşir Məmmədov haqqında açıqlaması diqqət çəkib.***

R.Qarayev ARB TV-də yayımlanan "Həmin Zaur" verilişində qonaq olarkən aparıcının "Cavanşir müəllimi Türkiyənin hansı məşhur ulduzuna bənzədirsiniz?" sualına cavab olaraq İbrahim Tatlısesin adını çəkib. "Həqiqi mənada İbrahim Tatlısesə bənzədirəm. Danışığı, oxumaq tərzi, seçdikləri repertuarlar... Bir başının güllәsi çatmır".



# "Məndən halallıq istədi" - Nazpəri İlhamə Quliyeva haqda

***"Bağışlamadığım insan yoxdur. Əlbəttə, bağışlamışam. Hətta illər əvvəl mənimlə ciddi konfliktə girən sənət adamlarını da bağışlamışam".***

Bu sözləri Xalq artisti Nazpəri Dostəliyeva "Bağ mövsümü" proqramında deyib. Müğənni aparıcı Murad Əzimzadənin "Bu sənətdə kimi bağışlamamısınız? Sizinlə ciddi konflikti olan sənət adamları gördük. Heç peşman oldunuzmu? O səhvi bir də təkrarlaya bilərlər" sözlərinə belə cavab verib:

"Sevinirəm ki, aciz olmadım. Söhbət dünyadan köçəndən gedir (mərhum Xalq artisti İlhamə Quliyeva nəzərdə tutulur - red.). Onu bağışladım və özüm onun üçün Yasin də oxudum. Allah qəbul etsin. Çünki yuxuma girdi, halallıq istədi. Amma ondan əvvəl artıq onu bağışlamışdım. Böyük Allah bağışlayandır, biz isə onun bəndələriyik".

Qeyd edək ki, mərhum Xalq artisti İlhamə Quliyeva və Nazpəri Dostəliyeva arasında illərlə qalmaqal yaşanıb. Onların mübahisəsi məhkəməyə qədər gedib çıxıb. İ.Quliyeva Dostəliyevanı məhkəməyə vermiş və 25 min manat təzminat almışdı.

# "Qayınanamdan qorxuram" - Xuraman Şuşalı

***Müğənni Xuraman Şuşalı qayınanasından qorxduğunu etiraf edib.***



Axşam.az xəbər verir ki, bu haqda sənətçi "Səhər mərkəzi" proqramında deyib. O, aparıcının "Qonşular deyir ki, bu günlərdə qayınananızla davanız olub" sözlərinə Xuraman etiraz edib: "Qayınanamdan çəkinirəm. Küsürsə, könlünü almaq olmur. Allah ona can sağlığı versin. Bu yaxınlarda qayınatam dünyasını dəyişdi. Çox gözəl insan idi. Amma aramızda söhbət olmur. Qayınanamdan qorxuram. O demək deyil ki, məni döyür. Sadəcə küsəndə könlünü almaq olmur".

# Sevdadan Elnarənin ifasına şərh

***Əməkdar artistlər Sevda Ələkbərzadə və Elnarə Abdullayeva prodüser Asif Kərimovun qızının toyunda bir araya gəliblər.***

"Unikal" Axşam.az-a istinadən xəbər verir ki, Ələkbərzadə səhnədə xarici mahnı oxuyan xanəndənin ifasını yayımlayıb.

Sevda Elnarənin videosuna "Əsl ifaçı odur ki, hər şey oxuyur" şərhini yazıb.





## I və IV ixtisas qrupu üzrə qəbul imtahanları keçirildi

### DİM: "9 nəfərin nəticəsi ləğv edilib"

***Dünən I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib.***

"Unikal" xəbər verir ki, imtahan keçirilən şəhər və rayonlarda 110 imtahan binası, 1921 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 110 ümumi imtahan rəhbəri, 310 imtahan rəhbəri, 2392 nəzarətçi-müəllim, 269 buraxılış rejimi əməkdaşı, 110 bina nümayəndəsi ayrılıb.

İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, müntəzəm olaraq imtahanın keçirildiyi binalarla əlaqə saxlanılıb və imtahanın gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, iştirakçılara öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

İlkin məlumatlara əsasən, 9 nəfərdə mobil telefon aşkarlandığı üçün imtahandan xaric olunub. Üzərində mobil telefon tutulduğu üçün imtahandan xaric olunanların nəticələri ləğv olunur və müsabiqəyə buraxılmırlar.

İmtahanda 25339 abituriyentin iştirakı nəzərdə tutulurdu. İmtahanda, həmçinin 23 nəfər fiziki məhdudiyyətli (I qrup gözdən əlil, eşitmə əngəlli və digər) abituriyent də iştirak edib. Bu abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında ayrıca zallar ayrılıb, gözdən əlillər üçün tapşırıqların oxunması, cavab vərəqinin doldurulması və s. işlər üçün fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli abituriyentlərin bina və zala daxil olması və rahat şəkildə hərəkəti üçün də xüsusi şərait yaradılıb.

İmtahanda istifadə olunmuş qapalı və kodlaşdırıla bilən açıq tipli test tapşırıqlarının doğru cavab etalonları yaxın saatlarda Mərkəzin "Teleqram" kanalına (https://t.me/stateexamcenter), digər sosial şəbəkə hesablarına və saytına yerləşdiriləcək.

Bu gün saat 15:00-da DİM-in "Youtube" və "Facebook" səhifələri vasitəsilə canlı yayım ediləcək və Mərkəzin məsul əməkdaşları, ekspertlər tərəfindən həm I, həm də IV ixtisas qrupu üzrə imtahanlarda istifadə olunmuş test tapşırıqları ilə bağlı geniş izahat veriləcək.

Abituriyentlər suallarını "Facebook"da yerləşdirilən müvafiq postun altına yaza və ya info@dim.gov.az elektron poçtuna göndərə bilərlər.

Bu gündən etibarən DİM-də imtahan protokolları və materialların emalına başlanılacaq. İmtahanlarda istifadə olunan yazılı cavab tələb edən açıq tipli tapşırıqların yoxlanılması uzun müddət tələb etdiyindən nəticələrin yaxın 2 həftə ərzində elan olunması nəzərdə tutulur.

# Emin Əmirullayevin çətin sınağı

### Təhsil Nazirliyinin "köhnə hamam, köhnə tas" prinsipi ilə işləyən rəhbərliyi açıq hədəfə çevirilməkdə davam edir; bu nazirlikdə daha genişmiqyaslı "təmizləmə" qaçılmazdır

***Son günlər yerli mediada və sosial şəbəkələrdə Təhsil Nazirliyi ilə bağlı neqativ məzmunlu xəbərlərin artdığı müşahidə olunur. Məsələn, bir neçə gün öncə MİQ (müəllimlərin işə qəbulu) müsabiqəsinin imtahan mərhələsində riyaziyyat fənni üzrə test tapşırıqlarının maddi maraq qarşılığında əvvəlcədən ötürülməsinə dair məlumatlar yayılmışdı. Bu isə cəmiyyətdə narazılığa və geniş müzakirələrə yol açmışdı. Üstəlik, Təhsil Nazirliyi və onun tabeliyindəki Təhsil İnistitutu yaylan məlumatla bağlı rəsmi açıqlama yayaraq, sözügedən qayda pozuntusunu təsdiqləmişdi. Bundan sonra nazirliyin fəaliyyəti ilə bağlı tənqidlərin miqyası daha da genişlənmişdi.***

Mövzu ilə bağlı danışan təhsil eksperti Elçin Əfəndi isə KİV-ə açıqlamasında son dövrlər Təhsil Nazirliyinin müəyyən məsələlərlə bağlı, xüsusən də ötən tədris ili ilə bağlı nöqsanların üzə çıxdığını vurğulamışdı. "Eyni zamanda 2022-ci ilin yanvar ayından etibarən məktəblərdə yaşanan xoşagəlməz hadisələr, müəllimlərin sertifikasiyası ilə bağlı keçirilən proseslər, məktəb rəhbərlikləri tərəfindən şagirdlərə qarşı zorakılığın tətbiq olunması və s. amillər təhsil sistemində müəyyən islahatların həyata keçirilməsini labüdləşdirir. Fikrimcə, yaxın tarixdə dövlət başçısı tərəfindən müəyyən addımlar atılacaq. Bu, gözlənilləndir. Çünki hər il eyni neqativ məqamlar yaşanmamalıdır. Təhsil sahəsində istisna hal kimi neqativ hal ola bilər, amma bunun daimi olması qəbuledilməzdir" deyə o bildirmişdi.

Bundan başqa, Təhsil Nazirliyi və bir sıra qeyri-hökumət təşkilatları arasında "qrant biznesi", "hədiyyə qrantlar"la bağlı iddialar səsləndirilir. İddialara görə, Təhsil Nazirliyi qrant müsabiqələrini ictimaiyyətə açıq formada açıqlamır. Yəni müsabiqə elan edilmir və ya bu, gizli formada gerçəkləşdirilir. Üstəlik, tenderdə qalib gələn və onun icrasını reallaşdıran qurumlarla bağlı hər hansı hesabat açıqlanmır.

Qrant müsabiqələrində vəsaitlərin "yuyulması" ilə bağlı bir sıra qeyri-hökumət təşkilatı rəhbərlərinin nümayəndələrinin adları da hallandırılır.

Məsələn, Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin (AGADMC) sədri, fəlsəfə doktoru İlqar Orucovun, Vətəndaş Tədqiqat və İnkişaf İctimai Birliyinin sədri Günel Səfərovanın adları da hallandırılır. İlqar Orucovla bağlı 100 min manatlıq qrant məsələsi barədə iddiada bildirilib ki, icrası 2021 və 2022-ci illəri əhatə edən "Open Science" Azərbaycan: Gənc Tədqiqatçılar Arasında "Open Science" platformasının təbliği" layihəsi ilə bağlı heç bir hesabat təqdim edilməyib.

Üstəlik, Təhsil Nazirliyinin adıçəkilən qrant müsabiqəsi ilə bağlı tender elan etmədiyi də vurğulanır.

"Eyni zamanda, 100 min manatın hara, necə və hansı şəkildə xərclənməsi ilə bağlı məlumat da yoxdur" - yerli KİV-lər yazıb. Qarşı tərəf isə iddiaları yalanlayıb və hər şeyin şəffaf şəkildə, qanunvericiliyə uyğun həyata keçirildiyini bildirib.

Bunun ardınca isə Günel Səfərovanın Təhsil Nazirliyi ilə birgə 50 min manatlıq vəsaiti mənimsədiyi barədə məlumatlar dövriyyəyə buraxılıb. Həmin iddialara görə, Günel Səfərova Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri olduğu üçün Təhsil Nazirliyindən rahatlıqla qrant alıb. Sitat: "Üstəlik, bununla bağlı ictimaiyyətə hər hansı məlumat açıqlanmayıb. Eyni zamanda, Təhsil Nazirliyinin rəsmi saytında adıçəkilən qrant layihəsi ilə bağlı heç bir informasiya yerləşdirilməyib və bunun da səbəbi güman ki, məsələni "ört-basdır etməkdir"" (publika.az).



İstər Təhsil Nazirliyindəki tenderlər və təyinatlar, istərsə də təhsil müəssisələrindəki neqativ hallarla bağlı bu cür aramsız iddialar düşündürücüdür.

Əslində təhsil sektoru ilə bağlı belə iddialara, ittihamlara cəmiyyət, bir növ, adətkardır. Lakin son illərdə sözügedən sahədə islahatlar belə iddiaların, ittihamların səngiyəcəyi yönündə gözləntilər yaratmışdı. Ancaq təəssüf ki, biz belə gözləntilərin əksər hallarda özünü doğrultmadığının şahidi oluruq. Elə çıxır ki, Təhsil Nazirliyində və onun müxtəlif strukturlarında, o cümlədən regional qurumlarında bir çoxları hələ də "köhnə hamam, köhnə tas" prinsipi ilə işləyirlər. Beləri istər tenderlərdə, istər müxtəlif layihələrin (məsələn, MİQ-in) icrasında, istərsə də təhsil müəssisələrinin idarəçiliyində qeyri-şəffaf davranmaqda, müasir çağırışlara qulaq vermək yerinə şəxsi maraqlardan çıxış etməkdədir.

Bu isə Təhsil naziri Emin Əmirullayevin məsul olduğu sektorda daha genişmiqyaslı islahatlar aparmasının zəruriliyini bir daha gündəmə gətirir. Aydın görünür ki, sözügedən sahədə "təmizləmələr" ardıcıl və aramsız xarakter daşımalıdır; əks halda həm təhsil sektorundan qalmaqallı xəbərlər gəlməkdə davam edəcək, həm də Təhsil Nazirliyinin mövcud rəhbərliyinin çoxsaylı problemləri çözməkdə kifayət qədər effektiv davranmadığı yönündə tənqidlərin haqlılığına şübhə yeri qalmayacaq...

***Toğrul Əliyev***

# "Ermənistan rəhbərliyini sülhə məcbur edəcəyik"

## Səməd Seyidov: "Ermənilər gərək müstəqil olsunlar ki, bizimlə ciddi söhbətlər apara bilsinlər"



***İyulun 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla erməni həmkarı Ararat Mirzoyan arasında Tbilisidə keçirilən görüşdə bir sıra məsələ müzakirə olundu. Artıq tərəflər arasında deputatların görüşlərinin təşkil edilməsi təklif olunur.***

Hətta Azərbaycan və Ermənistan Paralmentlərarası İşçi Qrupunun yaradılacağı barədə də fikirlər var. Avropa Şurası Parlament Assambleyasının sessiyaları zamanı Azərbaycanın nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bununla əlaqədar təklif səsləndirib. Komitə sədri erməni deputatları danışıqlar masasına dəvət edib, amma onlar bununla razılaşmayıb.

Məsələ ilə bağlı Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Unikal"a açıqlama verib:

"Ermənilər gərək müstəqil olsunlar ki, bizimlə ciddi söhbətlər apara bilsinlər. Hadisələr göstərir ki, Ermənistan müstəqil deyil. Onlara heç dövlət adı da yaraşmır. Ona görə də, Ermənistanla danışıqlar aparmaq olduqca çətindir. Əlbəttə ki, ümidi itirmək olmaz. Biz bu məsələdə ümidli olsaq da, qətiyyən rahatlaşmaq da olmaz. Xüsusilə regionda baş verən hadisələr, Rusiya-Ukrayna müharibəsi, Avropa və Amerika Birləşmiş Ştatlarında baş verən prosesləri izləməliyik.

Mənim fikrimcə, bu məsələnin bir yolu var. O da Azərbaycanın günü-gündən güclənməsi, qüdrətini artırmasıdır. Həmçinin, Azərbaycan dünya ölkələri ilə daha sıx əlaqələr yaratmalıdır və öz sözünü yüksək səviyyədə deməyi bacarmalıdır. Nəticədə, Azərbaycan danışıqlar masasında daha güclü mövqeyə malik olacaq. Bununla da biz Ermənistan rəhbərliyini sülhə məcbur edəcəyik", - deyə o bildirib.

Azərbaycanlı və erməni deputatların görüşləri haqqında Modern.az-a danışan Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Nigar Arpadarai isə erməni deputatların bu cür görüşlərə hazır olmadığını bildirib: "Müəyyən mərhələlərdə Ermənistanın vətəndaş cəmiyyəti, jurnalistləri, ziyalıları və s. ilə görüşlərinin təşkil edilməsi mümkün ola bilər. Amma hesab edirəm ki, Erməni tərəfi real addımlara hazır deyil.

***Murad İbrahimli***

# SOCAR-ın yeni prezidenti kimdir? - DOSYE

***Xəbər verdiyimiz kimi, Rövşən Nəcəf Prezident İlham Əliyevin sərəncamı ilə Dövlət Neft Şirkətinin Prezidenti təyin edilib.***

"Unikal" xəbər verir ki, Rövşən Nəcəf 1982-ci il aprelin 9-da Bakı şəhərində anadan olub. 1997-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq iqtisadi münasibətlər fakültəsinə daxil olub, 2001-ci ildə bakalavr, 2003-cü ildə isə magistratura proqramını fərqlənmə ilə bitirib.

2007-2008-ci illərdə ARDNŞ-in təqaüd proqramı çərçivəsində ABŞ-ın Kolumbiya Universitetində təhsil alaraq, İqtisadi Siyasətin İdarəedilməsi/Beynəlxalq Enerji Menecment və Siyasəti üzrə magistr proqramını uğurla bitirib.

Əmək fəaliyyətinə 2001-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq iqtisadi münasibətlər və marketinq kafedrasında laborant vəzifəsində başlayıb.

2003-2007-ci illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin İnvestisiyalar və beynəlxalq iqtisadi əməkdaşlıq departamentinin İnvestisiya siyasəti şöbəsində məsləhətçi və baş məsləhətçi vəzifəsində çalışıb.

2008-2009-cu illərdə ARDNŞ-in Sərmayələr İdarəsinin Sərmayələr üzrə Kontraktlar şöbəsinin rəisi vəzifəsində işləyib.

2009-2010-cu illərdə İqtisadi İnkişaf Nazirliyində Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri və iqtisadi inkişaf nazirinin köməkçisi olub.

2010-2018-ci illərdə "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin icraçı direktorunun müavini və icraçı direktoru vəzifələrində çalışıb.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 may tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İnnovativ inkişaf və elektron hökumət məsələləri şöbəsinin müdiri təyin edilib.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 avqust tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri təyin edilib. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 11 fevral tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli Sərəncamı ilə iqtisadiyyat nazirinin birinci müavini təyin olunub.



Cari ilin fevral ayında isə SOCAR Prezidentinin birinci müavini təyin olunub.

İqtisadiyyat üzrə fəlsəfə doktorudur. 3-cü dərəcəli dövlət müşaviridir.

Evlidir, 2 övladı var.

# Köçkünlər geri qayıtdıqdan sonra üç il bu tədbirlərdən yararlana biləcəklər

***Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə əhalinin köçrülüməsinin birinci mərhələsi davam edir. İyulun 21-də Abşeron rayonunun Masazır kəndindəki "Zəngilan" çəhərciyindən növbəti köç karvanı yola salınıb.***

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən "Unikal"a verilən xəbərə görə, otuz ilə yaxın yurd həsrəti ilə yaşayan daha 48 nəfər - 10 ailə yeni salınmış və ən müasir infrastrukturu olan kənddə onlara verilmiş evlərdə daimi məskunlaşacaqlar. Köçürülən ailələr, əsasən, müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Köçürülənlər arasında 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərinin hər birinin sakinləri vardır.

Mövcud qanunvericiliyə əsasən, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin onlar üçün müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcəklər.

Ağalı kəndinə köçürülümə, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə yeni yaşayış sahələrinin təqdim olunması cədvəli əsasında, ardıcıl şəkildə davam etdiriləcəkdir.

# Orduda cinayətlərin sayı azalıb

***Ötən illə müqayisədə orduda olan cinayət hadisələri azalıb.***

"Unikal" xəbər verir ki, bunu Hərbi Prokurorluqda 2022-ci ilin birinci yarımilliyinin yekunlarına dair kollegiya iclasında Hərbi prokuror Xanlar Vəliyev deyib.

O bildirib ki, 2021-ci ilin birinci yarımili ilə müqayisədə 2022-ci ilin birinci yarısında qeydə alınmış özünü öldürmə həddinə çatdırma cinayətləri 30 faiz, silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma cinayətləri 88,9 faiz azalıb: "Maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətləri 14,3 faiz, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə cinayətləri 40 faiz və xuliqanlıq cinayətləri 25 faiz azalması müşahidə olunur".

Müvafiq qurumlarla birlikdə həm I Qarabağ, həm də II Qarabağ müharibəsində həlak olmuş şəxslərin şəxsiyyətinin müəyyən olunması, bununla əlaqədar zəruri tədbirlərin görülməsi istiqamətində də işlər davam etdirilib. Bunu Hərbi Prokurorluğun kollegiya iclasında Hərbi prokuror Xanlar Vəliyev deyib. Bildirilib ki, o cümlədən Hərbi Prokurorluq orqanlarının əməkdaşları tərəfindən Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin işçiləri ilə birgə intensiv əməliyyat-istintaq tədbirləri, təxirəsalınmaz istintaq hərəkətləri, çoxsaylı ekspertizalar keçirilməklə, Müdafiə və Fövqəladə Hallar nazirliklərinin əməkdaşlarından ibarət axtarış qrupları tərəfindən bu istiqamətdə müntəzəm iş aparılmaqla qürur dolu 44 günlük döyüş əməliyyatlarında həlak olmuş şəxslərdən indiyədək 2908 şəxsin, o cümlədən itkin düşmüş hərbi qulluqçularımızın şəxsiyyətlərinin müəyyən edilərək meyitlərinin ailələrinə təhvil verilməsi təmin olunub. İtkin düşmüş 6 hərbi qulluqçunun olduqları yerlərin müəyyənləşdirilməsi məqsədilə əməliyyat-istintaq tədbirlərinin icrası davam etdirilir, eləcə də axtarış qrupları tərəfindən hazırda müntəzəm işlər aparılır.

Qeyd olunub ki, Ermənistan silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələri tərəfindən xalqımıza qarşı törədilən sülh və insanlıq əleyhinə olan, müharibə, terrorçuluq, qəsdən adam öldürmə və digər cinayət faktları ilə bağlı Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaq olunan cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# İlham Əliyev onu SOCAR-ın prezidenti təyin etdi



***Rövşən Çingiz oğlu Nəcəf Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti vəzifəsindən azad edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb. Dövlət başçısının digər sərəncamı ilə Rövşən Nəcəf Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti təyin olunub.

# Hərbi Prokurorluğun 4 əməkdaşı məsuliyyətə cəlb edilib



***Hərbi Prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi də diqqət mərkəzində saxlanılıb, bu sahədə aşkar olunan hər hansı nöqsan və pozuntuya qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq tədbirlərin görülməsi təmin edilib.***

"Unikal" xəbər verir ki, bunu Hərbi Prokurorluğundan 2022-ci ilin birinci yarımilliyin yekunlarına dair kollegiya iclasda Hərbi prokuror Xanlar Əliyev deyib.

Qeyd olunub ki, 2022-ci ilin birinci yarısında xidməti fəaliyyətində yol verdikləri nöqsanlara və pozuntulara görə 4 əməkdaş intizam məsuliyyətinə cəlb olunub.

# Gündəlik yoluxma sayı 300-ü keçdi, 2 nəfər öldü




***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 305 yeni yoluxma faktı qeydə alınıb, 175 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 2 nəfəri vəfat edib.

İndiyədək ümumilikdə 795 495 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 784 356 nəfər müalicə olunaraq sağalıb, 9 729 nəfər vəfat edib, aktiv xəstə sayı 1 410 nəfərdir.

Ölkədə son sutka ərzində 3 484, hazırkı dövrədək isə 7 015 080 test aparılıb.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700



# Dolların məzənnəsi sabit qaldı

***Azərbaycan Mərkəzi Bankı (AMB) iyulun 22-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb.***

AMB-dən "Unikal"a bildirilib ki, bankın iyulun 22-dən etibarən USD/AZN rəsmi məzənnəsi 1,7000 manat səviyyəsində müəyyən olunub.

# Büdcə vəsaitlərinin xərclənməsi ilə bağlı araşdırma aparılır

***Hesablama Palatası dövlət büdcəsindən ayrılmış əsaslı xərclərin maliyyə hesabatlarında əks etdirilməsi vəziyyətini araşdırır.***

Bu barədə Palatadan "Unikal"a verilən məlumatda bildirilib.

Qeyd edilib ki, 2021-ci ilin dövlət büdcəsindən ayrılmış əsaslı xərclərin maliyyə hesabatlarında əks etdirilməsi vəziyyətinin qiymətləndirilməsi üçün analitik prosedurlar tətbiq edilməklə müvafiq araşdırmaya başlanılması qərara alınıb. Aparılan planlaşdırma işlərinin nəticələri əsasında müvafiq nəzarət tədbirinin keçirilməsi məqsədilə İş Planına əlavə edilə bilər.

Hesablama Palatasının 2022-ci ilin İş Planında işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün ayrılan vəsaitlərin istifadəsi üzrə 4 audit nəzərdə tutulub.

Bu, Palatanın 2022-ci ilin altı ayı üzrə fəaliyyətinə dair məlumatında qeyd olunub. Bildirilib ki, hesabat dövründə onlardan 3-nün keçirilməsi ilə bağlı Kollegiya



tərəfindən qərar qəbul edilib, ilk 6 ayda 2-si başa çatdırılıb. Digər tədbirin 3-cü rübün sonunda başlanılması nəzərdə tutulur.

2022-ci ilin İş planı üzrə başa çatdırılmış kənar dövlət maliyyə nəzarəti (KDMN) tədbirlərinin nəticələri əsasında qəbul edilmiş Kollegiya qərarlarına əsasən pul, əvəzləşmə və natura ifadəsində cəmi 16,4 mln. manat məbləğində vəsaitin bərpası təmin edilib.

Bu barədə Hesablama Palatasının 2022-ci ilin altı ayı üzrə fəaliyyətinə dair məlumatda qeyd olunub. Bildirilib ki, 6,5 mln. manat məbləğində müvafiq obyektin investor smeta dəyərinin azaldılması, 6,9 mln. manat məbləğində debitor borcun bağlanılması ilə bağlı tədbirlər müəyyən edilib.

Eyni zamanda hesabat dövründə də əvvəlki illərdə başa çatdırılmış nəzarət tədbirlərinin nəticələri üzrə qurumlar tərəfindən atılmış addımların icrasının izlənilməsi (follow-up) diqqətdə saxlanılmış, əvvəlki illərin nəzarət tədbirləri üzrə 2022-ci ilin ilk 6 ayında pul, natura və əvəzləşdirmə formasında 2,7 mln. manat vəsaitin bərpası təmin edilib. Bundan əlavə, 943,4 min manat məbləğində debitor borc bağlanılmış və ya ləğv edilmiş, maliyyə hesabatlarında və uçotunda aşkar edilmiş təhriflərlə bağlı aidiyyəti düzəlişlər edilməklə 681,7 mln. manat hesabatlarda əks etdirilmiş, vergi bəyannamələrində dəqiqləşmələr aparılmış, intizam tənbeh tədbirləri tətbiq edilib. Eləcə də strukturun optimallaşdırılması ilə bağlı tədbirlər keçirilib.

***Anar Kəlbiyev***

# Azərbaycanda yeni publik hüquqi şəxs yaradıldı

***"Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs yaradılıb.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb. Fərmana əsasən, Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi" təsdiq edilib.

Müəyyən edilib ki, Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti (bundan sonra - Xidmət) Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərə (Şuşa rayonu istisna olmaqla) əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, bu qaydada tikilmiş çoxmənzilli binaların idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyət göstərən publik hüquqi şəxsdir;

3.2. Xidmətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

3.3. Xidmətin fəaliyyətinə cari rəhbərliyi Xidmətin Müşahidə Şurasının vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirir;

3.4. Xidmətin nizamnamə fondu 1 000 000 (bir milyon) manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır;

3.5. Xidmətin saxlanılma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir.

4. Xidmətin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. nizamnamənin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. idarəetmə orqanlarının yaradılması;

4.1.3. Müşahidə Şurasının üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.1.4. Xidmətin yenidən təşkili və ləğvi;

4.1.5. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

4.2. Xidmətə:

4.2.1. Xidmətin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiqi;

4.2.2. bu Fərmanın 4.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Xidmət "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Xidmətin nəqliyyat vasitələri ilə təmin olunması və maddi-texniki təminatı məsələlərinin həlli üçün zəruri tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

6.1. bu Fərmanın 3.4-cü bəndində nəzərdə tutulan maliyyələşməni təmin etsin;

6.2. Xidmətin saxlanılması və fəaliyyəti üçün tələb olunan vəsaiti hər il dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

7. Xidmət:

7.1. Xidmətin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

7.2. Xidmət dövlət qeydiyyatına alındıqdan sonra Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin;

7.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

# İcbari tibbi sığortadan narazılıqların ilginc pərdəarxası...

## Yalnız vətəndaşlar yox, deputatlar da gileylidir, rəsmi dövlət qəzeti də, ancaq...




***Ötən ilin yanvar ayından etibarən "Tibbi sığorta haqqında" qanuna əsasən, ölkə üzrə dövlət və özəl sektorda çalışanlardan icbari tibbi sığorta haqlarının toplanılmasına başlanılıb. Belə ki, dövlət və neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 2 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0.5 faiz miqdarında icbari tibbi sığorta haqqı tutulur.***

Dövlət və özəl sektorda çalışan hər bir vətəndaşın maaşından müvafiq qaydaya uyğun sığorta haqları tutulur. Lakin vətəndaşları narahat edən bir məsələ var. İnsanların əksəriyyəti icbari tibbi sığortadan istifadə etməyin çətin olduğunu və ya ümumiyyətlə, qeyri-mümkünlüyünü iddia edir.

Bu iddianı dilə gətirən yalnız sadə vətəndaşlar deyil, elə deputatlardan da bunu təsdiqləyən açıqlamalar verilir. Məsələn, Rüfət Quliyev parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin aprel ayında keçirilən iclasında "Hesablama Palatasının 2021-ci ildə fəaliyyəti haqqında" hesabatının müzakirəsi zamanı demişdi ki, insanların 90 faizi icbari tibbi sığortadan narazıdır: "Deputatlar var ki, bununla bağlı da müraciət ediblər. Ancaq onlara da bu narazılıqla bağlı cavab verilməyib".

Başqa bir millət vəkili - Fazil Mustafa isə ötən il Milli Məclisin plenar iclaslarından birindəki çıxışı zamanı "Əgər maaşımızdan icbari tibbi sığorta üçün faiz ödənilirsə, pullu müalicə almaq prosesi doğru deyil" deyə bildirmişdi. "Aprelin 1-dən icbari tibbi sığorta artıq respublika üzrə tətbiq edilir. Lakin əhali arasında böyük çaşqınlıq yaranıb. İnsanların təyinat olaraq harada müalicə olunacağı məlum deyil.Əgər hazırlıq yetərli səviyyədə deyilsə, niyə bunu formal tətbiq edirdik? Yanvar ayından icbari tibbi sığorta üçün vəsait çıxılır. Amma hələ bunun tətbiqində problemlər var. Bu qərar qəbulolunubsa əlavə bəhanələr olmamalıdır" - deputat əlavə etmişdi.

Məsələ ilə bağlı hətta rəsmi dövlət qəzeti - "Azərbaycan" da tənqidi məqalə dərc etmişdi. Qəzetin builki 1 aprel tarixli sayındakı yazıda bildirilirdi ki, icbari tibbi sığortanın Bakı şəhərində yeni tətbiq olunduğu vaxtlarda ərazi üzrə poliklinikalara üz tutanların şikayətləri daha çox idi. Tibb işçiləri poliklinikaların icbari tibbi sığortaya hələ keçmədiklərini, bununla bağlı göstəriş gəlmədiyini deyərək vətəndaşları bir növ "yola verirdilər". Təbii ki, artıq ötən il aprelin 1-dən respublika üzrə icbari tibbi sığortanın tətbiq edildiyi dönə-dönə təkrarlanırdı.

Bəs icbari tibbi sığortadan narazılıqların motivləri nələrdir? Rəsmi dövlət qəzetinin vurğuladığı kimi, bəzən vətəndaşlar hər hansı təcili əməliyyat zamanı göndəriş əsasında özəl tibb müəssisələrinə müraciət etdikdə, əməliyyat üçün müəyyən cərrah seçdikdə belə, həmin həkimlər icbari tibbi sığorta çərçivəsində işləmədiklərini qeyd edirlər. Bunun əsas səbəbini icbari tibbi sığorta çərçivəsində onlara ödənilən məvacibin azlığı, əməliyyat üçün ayrılan məbləğin yetərli olmaması ilə əlaqələndirirlər. Bu da vətəndaşın seçib, sağlamlığını əmanət edə biləcəyi həkimdən tibbi xidmət üçün istifadə edə bilməməsinə gətirib çıxarır.

Deməli, vətəndaşlarla yanaşı, tibb işçiləri də icbari tibbi sığortanın tətbiqindən məmnun deyillər. Tibb işçilərindən əməkhaqlarının gecikdirilməsi, onlara ödəniləcək aylıq həvəsləndirici əlavələrin düzgün hesablanmaması və ya azlığından daim şikayətlər eşidirik.

Ümumiyyətlə, əksər vətəndaşlar icbari tibbi sığortaya üz tutmamasının səbəbini prosesin uzun çəkməsi, bir neçə həkimdən keçəcəyi halda ödəyəcəyi vəsaitin özəl tibb müəssisəsində xərcləyəcəyi məbləğə gəlib çatacağı və tanımadığı həkimə etimad etməmələri ilə əsaslandırırlar. Bu da vətəndaşın icbari tibbi sığortaya inamsızlığını artırır.

Bir sözlə, icbari tibbi sığorta ilə bağlı istər vətəndaşlar, istərsə deputatlar, üstəlik, rəsmi mətbuat belə çoxsaylı tənqidlər səsləndirirlər, lakin həmin tənqidlərə gətirib çıxaran nöqsanların aradan qaldırılması istiqamətində təsirli addımlar atıldığını söyləmək hələ ki, mümkün deyil. Düzdür, bu tətbiq ölkəmiz üçün yenilikdir, bu səbəbdən də ortaya müəyyən boşluqların, yanlışlıqların, qüsurların çıxması bir o qədər də təəccüb doğurmamalıdır. Sadəcə, həmin boşluqların doldurulması, həmin yanlışlıqların düzəldilməsi, həmin qüsurların aradn qaldırılması istiqamətində aidiyyatı qurumların ləng rəftarı, o cümlədən çoxsaylı şikayətlərə biganə yanaşması anlaşılmazdır.

Anlaşılmaz və qəbuledilməzdir!...

***Sənan Mirzə***




# Media islahatları mövzusunda konfrans keçirildi

***"Dərinləşən media islahatları: Yeni hədəflərə doğru" mövzusunda konfrans və MEDİA-nın yeni veb-saytının təqdimatı keçirilib.***

"Unikal" xəbər verir ki, konfrans Azərbaycan Dövlət himinin səsləndirilməsi ilə açıq elan olunub.

Beynəlxalq media və ictimaiyyət nümayəndələri, xarici və yerli media ekspertlərinin iştirak etdiyi konfransın təşkil edilməsində məqsəd Azərbaycan mətbuatının keçdiyi inkişaf yolu, müasir dövrdə media islahatları, əldə olunan ilkin nəticələr və təhlilə yönələn fikir mübadiləsinin aparılması olub.

Konfransda açılış nitqi ilə çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov 22 iyul Milli Mətbuat Günü münasibətilə jurnalistləri təbrik edib: "Medianın İnkişafı Agentliyi ilk növbədə media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, maddi-texniki və hüquqi bazalarının möhkəmləndirilməsi, infrastrukturun modernləşdirilməsi, müvafiq sahədə yeni iqtisadi modelin yaradılmasını hədəfləyir və bu istiqamətdə atılacaq addımlara dəstək göstərir".

Konfrans "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəylinin moderatoru olduğu panel sessiyanın müzakirəsi ilə davam edib. Konfransın moderatoru Elçin Mirzəbəyli Azərbaycan mediasının tarixi ənənələrindən bəhs edib və media sahəsində aparılan islahatlardan danışıb: "Medianın Azərbaycanda hüquqi bazası formalaşdırılıb. Bununla da iş bitməyib. Bu proses Medianın İnkişafı Agentliyinin komandası tərəfindən irəliyə doğru aparılıb. Artıq mediada aparılan islahatların nəticələrini görməkdəyik".

Paneldə çıxış edən Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova bildirib ki, Ümummilli Liderin həyata keçirdiyi fundamental islahatlar nəticəsində müstəqil Azərbaycanın informasiya siyasətinin prioritetləri müəyyən edilib, senzura ləğv edilib, media üzərində dövlət nəzarəti aradan qaldırılıb, onun maddi-texniki bazası möhkəmləndirilib, yeni inkişaf perspektivləri açılıb.

Səadət Yusifova cəmiyyətin həyatında medianın rolunun durmadan artdığını deyib, medianın fəaliyyətində hər zaman obyektivlik, modernləşmə, rasionallıq, kreativlik, sosial məsuliyyət prinsiplərinin, milli maraqların daim rəhbər tutulmasının zəruriliyini vurğulayıb: "Bu gün Azərbaycan mediasında həyata keçirilən islahatların məqsədi ənənəvi medianın rəqəmsal mediaya sürətli keçidini təmin etmək, medianın maddi-texniki bazasının gücləndirilməsi, media subyektlərinin uğurlu biznes modelinin formalaşdırılması, cəmiyyətin mediaya etimadının artırılması, medianın beynəlxalq əməkdaşlığının genişləndirilməsidir. Medianın gücünü 30 illik işğal dövründə, Vətən müharibəsi dövründə və post-müharibə dövründə gördük. İnformasiya ən əhəmiyyətli və ən həssas yanaşma tələb edən faktordur. Ümid edirəm ki, Azərbaycan mediası bundan sonra da dövlətin inkişafına xidmət edəcək".

Mətbuat Şurasının sədri Əflatun Amaşov "Əkinçi" qəzetindən başlayan milli mətbuatın tarixinə nəzər salıb, ötən dövrdə medianın, mətbuatın inkişafında müsbət dinamikaya toxunub.

Audiovizual Şuranın Aparat rəhbəri Fazil Novruzov təmsil etdiyi qurumun fəaliyyətindən bəhs edib və bildirib ki, Azərbaycan mediası cəmiyyətin güzgüsü rolunu oynayıb: "Milli Mətbuatın qollarından biri də audiovizual mediadır. Keçən illərdə dövlət radio və televiziya kanalları ilə yanaşı, özəl radio və televiziya kanalları yaranmağa başlayıb. Ulu öndərin ölkənin ağır vəziyyətində hakimiyyətə qayıdışından sonra medianın gücünü dərk edərək hər zaman Azərbaycan mediasının dostu və dəstəkçisi oldu, Azərbaycan mediasında senzuranı ləğv etdi. Dövlətin informasiya cəbhəsində dayağı azad mediadır. Bunu müasir dövrdə atılan addımlar da bir daha göstərir. Jurnalistlərin güzəştli ipotekadan yararlanması ilə bağlı Prezident İlham Əliyevin Fərmanı bunun bariz nümunəsidir".

Daha sonra Fazil Novruzov 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan mediasının fəaliyyətindən bəhs edib, Vətən müharibəsindən sonra Kəlbəcərdə ermənilər tərəfindən basdırılan minaya düşərək həlak olan jurnalistlər - Məhərrəm İbrahimovu və Sirac Abışovu xatırlayıb.

Konfrans çərçivəsində MEDİA-nın yenilənmiş veb-saytının təqdimatı olub.

Agentliyin nümayəndəsi Ləman İsgəndərova bildirib ki, sayt ümumi dizayn, məzmun, istifadəçi rahatlığı, texniki imkanlar nəzərə alınmaqla yenidən qurulub. Yenilənmiş veb-sayt informativ olmaqla yanaşı istifadəçilər üçün daha əlçatan olub.



## Media Reyesteri nə vaxt istifadəyə veriləcək?

***“Azərbaycanda media sahəsində həyata keçirilən islahatlar və yeni hədəflər barədə müzakirələr aparılır”.***

”Unikal” xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib.

O bildirib ki, gələcəkdə istifadəyə veriləcək Media Reyestri və elektron köşk platformalarının da MEDİA-nın yeni saytına qoşulması gözlənilir: “Yaxın gələcəkdə Media Reyestri və elektron köşk platforması fəaliyyətə başlayacaq. Onların da təqdimatı keçiriləcək”.

## Maliyyə Nazirliyi Səfər Mehdiyevin dövrünü yoxlamağa başladı

***Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti Dövlət Gömrük Komitəsində yoxlamalara başlayıb.***



”Unikal”ın əldə etdiyi məlumata görə, Dövlət Xidməti tərəfindən Komitənin 2018-2022-ci illərdəki maliyyə təsərrüfatı araşdırılır.

Qeyd edək ki, həmin dövrdə DGK-nin sədri Səfər Mehdiyev olub. O, 2022-ci il iyul ayının 16-da Prezident İlham Əliyevin sərəncamı ilə vəzifəsindən azad edilib.

***Orxan Həsənli***

## MEDİA yenilənmiş veb-saytının təqdimatı oldu

***Medianın İnkişafı Agentliyinin (MEDİA) yenilənmiş veb-saytının təqdimat mərasimi olub.***

”Unikal” xəbər verir ki, Agentliyin nümayəndəsi Ləman İsgəndərova sayt ümumi dizayn, məzmun, istifadəçi rahatlığı, texniki imkanlar nəzərə alınmaqla yenidən qurulduğunu bildirib.

O vurğulayıb ki, yenilənmiş veb-sayt informativ olmaqla yanaşı istifadəçilər üçün daha əlçatandır.

# “Azərbaycan "Dəmir yumruğ"u işə salmadan ermənilərin ağlı başına gəlməyəcək”

## Ədalət Verdiyev: “Ermənistan silahlı qüvvələrinin atəşkəsi pozması Azərbaycana qarşı ərazi iddiaları anlamına gəlir”



***Hərbi ekspert Ədalət Verdiyev ”Unikal”a müsahibə verib. O, hərbi sahədə aparılan struktur islahatlarından, erməni silahlılarının sərhəddə vəziyyəti gərginləşdirməsindən, o cümlədən qarşı tərəfin döyüş mövqeləri yaratması və s. məsələlərdən danışıb.***

***-Bu günlərdə Ermənistan silahlı qüvvələri Xocalı rayonunun Şuşakənd kəndi istiqamətində döyüş mövqelərinin yaradılması məqsədilə tikinti işləri həyata keçirməyə başlayıb. Ermənistan ordusunun bu addımı atmasında məqsəd nədir?***

-Rusiyanın sülhməramlı qüvvələrinin müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin döyüş mövqeləri inşa etməsi birmənalı olaraq Azərbaycana qarşı ərazi iddiaları mənasına gəlir. Əvvəllər də belə iddialar intensiv şəkildə həyata keçirilib. Bunun müharibə zamanı nə ilə nəticələndiyini beynəlxalq ictimaiyyət müşahidə etdi. Görünən odur ki, erməni silahlıları və onları himayə edən Rusiya sülhməramlı qüvvələri həm müharibə, həm də ondan sonrakı müddətdə baş verənlərdən hələ də özləri üçün doğru nəticə çıxarmayıblar. Məlum ərazidə döyüş mövqeyi inşa edənlər isə hərbi sahədən heç də geniş məlumatlı deyillər. Tam müşahidə altında və aşağı yüksəklikdə mövqelərin inşa edilməsi yaxşı ideya deyil. Bu mövqeləri döyüşün ilk dəqiqələrində darmadağın etmək Azərbaycan Ordusu üçün heç bir problem təşkil etmir.

***-Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki nitqində Qarabağdakı sülhməramlıların işini tənqid edib. Prezident bildirib ki, bir neçə ay bundan əvvəl Rusiyanın Müdafiə Nazirliyinin yüksək vəzifəli şəxsi Azərbaycanda səfərdə olarkən Müdafiə Nazirliyinə söz verib ki, iyun ayına qədər erməni silahlı birləşmələri Qarabağdan çıxarılacaq: “Ancaq bu gün artıq iyulun ortasıdır, bu məsələ öz həllini tapmayıb. Ermənistan 10 noyabr Bəyannaməsinə zidd olaraq bu öhdəliyi yerinə yetirmir. Rusiya sülhməramlıları - Rusiya tərəfi də 10 noyabr Bəyannaməsini imzalayıb - necə deyərlər, onları buna məcbur etmir”, - deyə dövlət başçısı qeyd edib. Ermənistan tərəfinin bu öhdəliyi yerinə yetirməməkdə məqsədi nədir?***

- Cənab Prezidentin erməni silahlılarının ərazidən çıxarılmasına dair verdiyi bəyanatlardan sonra Rusiya sülhməramlı qüvvələrinin öz funksiyalarını tam həcmdə yerinə yetirmədikləri, Ermənistanın isə birgə bəyanatın şərtlərindən yayınması, həmçinin, erməni silahlılarının döyüş mövqeləri inşa etməsi ”Dəmir yumruğ”un növbəti zərbəsini yaxınlaşdırır. Ola bilər ki, bu ilin payız ayları Ermənistan və Qarabağda yerləşən separatçı rejim üçün ağrılı bir nəticələr vəd etsin.

***-Bu ilin altı ayında hərbi sahədə struktur islahatları aparılıb. Yeni silahlı birləşmələr yaradılıb. Bunlara misal olaraq komando hərbi hissələrini qeyd etmək olar. Bu birləşmələrin üstünlükləri nədən ibarətdir və komandoların sayı artırılacaqmı?***

- Komando hərbi hissələri həm Milli Orduda, həm də Dövlət Sərhəd Xidmətində yaradılıb. Azərbaycan döyüş potensialını artırmaq üçün Türkiyə ordu modelini seçib. Bilirik ki, irihəcmli, çoxlu sayda ağır texnikalara, silahlara, artilleriya vasitələrinə, zirehli, zirehsiz, yüngül zirehli texnikalara malik motoatıcı hərbi hissələrin yüksək dağlıq ərazilərdə hərəkət fəaliyyəti müəyyən qədər məhdud olur. Bəzən texnikaların hərkət etməsi üçün müvafiq yolların olmaması, coğrafi şəraitin mürəkkəbliyi motoatıcı hissələrin qısa müddətdə vacib vəzifələri icra etməsinə imkan vermir. Komando hərbi hissələri isə peşəkar, mükəmməl fiziki hazırlığa malik və hər biri bir neçə motoatıcı əsgəri əvəz edəcək döyüşçülərdən ibarətdir. Komando hərbi hissəsi heç bir kənar dəstək olmadan avtonom şəraitdə kiçik bölmələrlə böyük vəzifələr icra edə bilir. Motoatıcı hissələrin isə bunu etməsi çətindir. Motoatıcı hissələr adətən tabor şəklində vəzifələri icra edə bilir. Bu isə maskalanmada, dağ keçidlərinin aşılmasında, yüksək sıçrayışlarla düşmən dərinliklərində vəzifələri icra etməkdə çətinliklər yaradır.

Komando hərbi hissələri bu çətinlikləri aradan qaldırmaqla yanaşı, Qarabağda müvəqqəti yerləşən Rusiya sülhməramlı qüvvələrinin olduğu ərazilərin həm perimetri, həm də Azərbaycan- Ermənistan sərhəddi boyunca baş verə biləcək təxribatlara minimum müddətdə reaksiyanı təmin edir. Gələcəkdə komando hərbi hissələrinin sayı artırılacaq. Onlar Azərbaycanın bütün sərhəd ərazilərini əhatə edəcək.

***-Dövlət başçısı 6 ayın yekunlarına həsr olunan müşavirədə qeyd edib ki, yeni kontraktlar imzalanıb, hərbi texnika, silah-sursatlar alınır və alınacaq. Büdcə dürüstləşməsi zamanı da hərbi xərclər əhəmiyyətli dərəcədə artırılıb. Bu artım yüksək texnoloji imkanları olan silahların alınmasına xərclənəcək. Daha da dəqiqləşdirsək, hansı ölkələrdən və hansı silahların alınması gözlənilir?***

- Yeni yaradılan hərbi hissələrin təminatı və təchizatı daxil olmaqla, müharibədə sərf etdiyimiz sursatların yeri doldurulub. Yeni silahların alınması ilə bağlı kontraktlar barədə məlumatlar olsa da, detalların açıqlanmasını hələlik doğru hesab etmirəm. Bu silahlar ictimaiyyətə rəsmi təqdim olunduqdan sonra daha geniş məlumat verə bilərik. Bununla yanaşı, onu da qeyd etmək lazımdır ki, Azərbaycan Ordusunun silah-sursat təchizatında yerli müdafiə sənayesinin istehsalı ilə yanaşı, Türkiyə və İsrail istehsalı olan ağıllı idarəolunan silah sistemlərinə üstünlük verilir.

***-Bir neçə müddətdir ki, Ermənistan silahlı qüvvələri əsasən Kəlbəcər istiqamətində Ordumuzun mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutur. Qarşı tərəfin bu addımları yenidən vəziyyətin gərginləşməsinə səbəb ola bilərmi?***

- Ermənistan silahlı qüvvələrinin Kəlbəcər istiqamətində atəşkəsi pozması Azərbaycana qarşı ərazi iddiaları anlamına gəlir. Bu fəaliyyətlər vəziyyəti bir az da gərginləşdirir. Azərbaycan bunun qarşısının alınması üçün kifayət qədər tədbirlər görür. Onların detallarını tam açıqlamaq istəməzdim. ”Dəmir yumruq” artıq formalaşıb. Rusiya silahlı qüvvələrinin erməni silahlılarına səngər qazdırması, onların atəşkəs rejiminin pozulmasını görməzdən gəlməsi, sülhməramlıların Ağdam-Əsgəran yolu ilə silah qaçaqmalçılığı etməsi, hərbçilərimizin onların maşınlarını saxlayaraq geri qaytarması və s. məsələlər onu göstərir ki, Azərbaycan ”Dəmir yumruğ”u işə salmadan həm sülhməramlıların, həm də erməni silahlılarının ağlı başına gəlməyəcək. Vəziyyət kifayət qədər gərgindir. Bunun da əsas səbəbi Rusiya sülhməramlılarının və Ermənistanın birgə bəyanatda üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsidir. Rusiya sülhməramlılarına, erməni silahlılarına və eləcə də Ermənistanın hərbi-siyasi rəhbərliyinə müharibədən sonrakı dövrdə atəşkəsin pozulmasının nə ilə nəticələndiyini dəfələrlə nümayiş etdirmişik. Onlar isə öz fəaliyyətləri ilə bizdən bunun təkrarlanmasını israrla xahiş edirlər. Düşmən olsalar da, onların bu xahişlərinə “yox” deməli deyilik. Növbəti dəfə Fərrux, Qaragöl, Alagöllər və s. kimi ərazilərdə həyata keçirdiyimiz fəaliyyətlərin miqyasını bir az da genişləndirib təkrarlamalıyıq.

***Anar Kəlbiyev***

# Səlim Müslümovun son şansı

## Sabiq nazirin düşdüyü vəziyyətdən qurtulmaq üçün bircə yolu qalıb

***Yola salmaq üzrə olduğumuz həftə sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun məhkəməsinin vaxtı dəqiqləşdi. Məlum oldu ki, Bakı Ağır Cinayətlər Məhkəməsində keçiriləcək məhkəmənin hazırlıq iclası avqustun 1-nə təyin edilib.***

Cinayət işi hakim Faiq Qəniyevin icraatında araşdırılacaq.

Xatırladaq ki, Səlim Müslümov DTX tərəfindən keçirilən xüsusi əməliyyatla həbs olunub.

Sabiq nazir Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Daha sonra səhhətindəki problemlərlə bağlı o, ev dustaqlığına buraxılıb.

Bu isə belə bir fikrin formalaşmasına səbəb olub ki, gələn ayın ilk günündə başlayacaq məhkəmə prosesinin sonunda sabiq nazirə yüngül cəza veriləcək və o, həmin cəzanın çəkilməmiş hissəsini də elə ev dustağı olaraq başa vuracaq.

Lakin əldə etdiyimiz məlumata görə, bu, adi dedi-qodudan başqa bir şey deyil və Səlim Müslümova elan edilən ittihamların ağırlığı onun barəsindəki sözügedən iddiaların gerçəkləşməsinə əl yeri qoymur.

Hətta bunun təcrübədə nümunələri də var. Məsələn, bu ilin iyununda Yevlaxın sabiq icra başçısı Qoca Səmədov barəsində apellyasiya məhkəməsinin qərarından verilmiş kassasiya şikayətinə baxılıb. Ali Məhkəmədə hakim Tahir Kazımovun sədrliyi ilə baxılan şikayətlə bağlı qərar elan olunmuşdu. Qərara əsasən, sabiq icra başçısına Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı) maddəsi ilə verilmiş ittiham ləğv edilmiş, bununla bağlı Qoca Səmədovun cəzası 3 ay azaldılaraq 5 il 9 aya endirilmişdi.

Xatırladaq ki, Qoca Səmədov 2019-cu ildə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən xüsusi əməliyyatla saxlanılmışdı. O, vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, vəzifə saxtakarlığı, külli miqdarda təkrar rüşvət alma, mənimsəmə və digər faktlara görə təqsirli bilinərək Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 7 il 3 ay azadlıqdan məhrum edilmişdi. Sonradan Şəki Apellyasiya Məhkəməsi sabiq icra başçısının səhhətini nəzərə alaraq həbs müddətini 6 ilə endirmişdi.

Bundan başqa, Qocayev barəsində də səhhətinə görə ev dustaqlığı qərarı çıxarılmışdı, lakin məhkəmənin qərarı qətiləşincə o elə hökm olunduqdan sonra yenidən qandallandı və cəzaçəkmə müəssisəsinə göndərildi.

Bunu niyə xatırladırıq?

Sualın cavabı sadədir: demək istəyirik ki, Səlim Müslümovun səhhət səbəbilə ev dustaqlığına buraxılması nə eks-nazirin yüngül cəza alacağının, nə də növbəti dəfə dəmir barmaqlıqlar ardına göndərilməkdən sığortalanacağının işarətidir.

Üstəlik, sabiq nazirlə bağlı uzun müddətdir mediada önəmli bir iddia gündəmə gətirilir. Məsələ burasındadır ki, Müslümovun vəzifədə olduğu müddət ərzində təxminən 2 milyard manatlıq dövlət vəsaitini mənimsədiyi deyilirdi. Elə onun ibtidai istintaqının uzun müddət davam etməsi də cəmiyyətdə, mediada, eləcə də hüquqşünaslar arasında məhz bununla əlaqələndirilirdi. ”Təkcə Sosial Müdafiə Fondu dövlətdən hər il 1,5 milyard manat dotasiya alıb. Bu məbləğ Səlim Müslümovun nazir olduğu son 5 il ərzində büdcədən ödənilib. Həmin vəsait toplam 7 milyard 500 milyon manatdır. Bu məbləğin hansı hissəsi təyinatı üzrə xərclənib, hansı hissəsi isə özününküləşdirilib, bunu istintaq müəyyən etməli idi. Kifayət qədər böyük vəsaitdən söhbət getdiyi üçün istintaqın belə məqamları aydınlaşdırmasına uzun zaman tələb edilirdi” deyən ekspertlər həm də belə düşünürdülər ki, Səlim Müslümovun dövlət büdcəsindən yayındırdığı məbləğ qətiləşdirildikdən sonra istintaq ona yekun ittiham verəcək.



“Əgər Səlim Müslümov ittihamda göstərilən məbləği qaytarsa, bu halda ona daha yüngül cəza təyin ediləcək” - bu da hüquqşünasların yekun qənaəti idi. Düzdür, Müslümov həbsdə olarkən müxtəlif kanallar vasitəsilə günahsızlığına dair mesajlar göndərirdi. Lakin reallıq vəziyyətin tamamilə başqa olduğunu göstərir və belə düşünməyə əsas verir ki, səhhətindəki problemlər vəzifədə olarkən ölkənin ən korrupsioner məmurları arasında yer alan eks-nazir barəsində məhkəmə sonucu layiqli cəza verilməsinə əngəl yarada bilməz.

Bir sözlə, S.Müslümov üçün avqustun 1-də başlayacaq məhkəmə prosesi hüquqi baxımdan son şansdır - onun nazir olarkən milyardlarla manatlıq dövlət vəsaitini bu və ya digər formada taladığını axır ki, etiraf eləməkdən, nəticədə cəzasını yüngülləşdirməkdən başqa yolu qalmayıb...

***Sənan Mirzə***

# İranın Azərbaycandakı səfiri israilli həmkarını ölümlə təhdid etdi



***İranın Azərbaycandakı səfiri Abbas Musəvi İsrailin Azərbaycandakı səfiri Corc Dikin tvitinə cavab verib.***

“Unikal”ın xəbərinə görə, C.Dikin Azərbaycanın tarixi şəhəri Təbrizin mədəniyyəti haqqında kitab oxuduğu yerdə foto paylaşmasından narahat olan iranlı diplomat həmkarını ölümlə təhdid edib.

“Bu macəraçı oğlancığazın məlumatı üçün: Bizim əziz Təbrizimiz İranın qürurlu tarixində ilklər diyarı kimi tanınır. Görünür, ilk şər sionisti də qeyrətli Təbriz camaatı dəfn edəcək. Qırmızı xəttimizi heç vaxt keçmə, heç vaxt!”, - A.Musəvi tviter səhifəsində yazıb.

İranlı səfirin bu cür aqressiv tviti sosial şəbəkə istifadəçiləri tərəfindən birmənalı qarşılanmayıb.

Xatırladaq ki, İsrailin Azərbaycandakı səfiri Corc Dik ötən gün tviter səhifəsində “Təbrizin sehrli nağılları” kitabını oxuduğunu əks etdirən foto paylaşıb. Diplomat qeyd edib: ”Bu yaxınlarda mənə ərməğan edilən bu möhtəşəm kitabda Təbrizdə Azərbaycan tarixi və mədəniyyəti haqqında çox şey öyrənirəm”.

Qeyd edək ki, bu, İsrail və İran səfirlikləri arasında baş verən birinci insident deyil. Bu il fevralın 17-də İran səfirliyi səhvən İsrail səfiri Corc Dikin tvitini bəyənib. İsrailli diplomat isə İran səfirliyinə məsxərə ilə təşəkkürünü bildirib.

# Avropa Parlamentinin deputatları Bakıya səfərə gələcək



***Tiflisdə səfərdə olan Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin nümayəndə heyəti prezident Salome Zurabişvili ilə görüşüb.***

”Unikal” xəbər verir ki, heyətin sədri bildirib ki, Gürcüstan namizəd statusu almaq üçün müəyyən prioritet məsələləri həll etməlidir.

Qeyd edək ki, Avropa Parlamentinin deputatları Gürcüstandan sonra Ermənistan və Azərbaycana da səfər edəcəklər.

***Aynurə***

# Rəşad Nəbiyev cüdoçularla görüşüb



***Azərbaycan Cüdo Federasiyasının (ACF) prezidenti Rəşad Nəbiyev yeniyetmələrdən ibarət milli komandanın üzvləri, məşqçi və dəstək heyəti ilə görüşüb.***

Federasiyadan “Unikal”a verilən məlumata görə, o, 23 - 26 iyunda Xorvatiyanın Poreç şəhərində keçirilən Avropa çempionatındakı yüksək nəticələrə görə idmançıları təbrik edib. R.Nəbiyev yığmanın 3 qızıl, 1 gümüş və 4 bürünc olmaqla fərdi yarışlarda 8 medal əldə etdiyini və bunun 2004-cü ildən etibarən qazanılan ən yaxşı nəticə olduğunu qeyd edib.

Federasiya prezidenti vurğulayıb ki, kollektiv medal sıralamasında ümumi hesabda 2-ci yeri, oğlanlar arasında isə 1-ci yeri tutub

Komanda yarışlarında bürünc medal qazanıldığını xatırladan ACF prezidenti Azərbaycanın cüdo tarixində ilk dəfə bu uğura imza atıldığını xüsusi vurğulayıb.

R.Nəbiyev bildirib ki, bütün bu nəticələr ölkə rəhbərliyinin idmana, o cümlədən cüdoya olan qayğısı və dəstəyi nəticəsində əldə edilib. O, yeniyetmə cüdoçulara özlərini tək idmançı kimi deyil, həm də layiqli vətəndaş kimi yetişdirmələri üçün tövsiyələrini verib, təhsillərinə xüsusi diqqət yetirmələrinin vacibliyini qeyd edib.

Görüş zamanı yeniyetmə oğlanlardan və qızlardan ibarət yığmanın məşqçiləri 24 - 28 avqustda Bosniya və Herseqovinada keçiriləcək dünya çempionatına hazırlıq barədə məlumat veriblər. Onlar Azərbaycanda və müxtəlif ölkələrdə yüksək səviyyədə təlim-məşq toplanışlarında iştirak etdiklərini, hazırlıqla bağlı bütün lazımi şəraitin yaradıldığını bildiriblər.

R.Nəbiyev qarşıdan gələn nüfuzlu yarışda cüdoçulara uğurlar arzulayıb.

Görüşdə ACF-in vitse prezidenti Elnur Məmmədli, federasiya prezidentinin müşaviri Natiq Bağırov və qurumun baş katibi Rəşad Rəsullu da iştirak ediblər.

# Bu qanun layihələri payızda müzakirə ediləcək



***VI Çağırış Milli Məclisin növbədənkənar sessiyası iyulun 8-də başa çatdı. Cari ilin yaz sessiyasının qanunvericilik işləri planına daxil edilmiş, lakin müzakirəsi baş tutmayan qanun layihələri növbədənkənar sessiyanın da gündəliyində yer almadı.***

Bununla belə, həmin qanun layihələrinin, o cümlədən bir sıra sahələrlə əlaqədar yeni hazırlanacaq və artıq ilkin versiyada hazır olan layihələrin 2022-ci il payız sessiyasında müzakirəyə çıxarılacağı gözlənilir.

“Unikal” xəbər verir ki, bunların içərisində yaz sessiyasının gündəliyinə daxil edilən 6 qanun layihəsi daha çox qeyd edilir. Bunlar, “Hərbi qulluqçuların statusu haqqında”, “Qiymətləndirmə fəaliyyəti haqqında”, “Reproduktiv sağlamlıq haqqında”, “Ali təhsil haqqında” və “Qeyri-maddi mədəni irsin qorunması haqqında” qanun layihələridir.

İşlər planına daxil edilmiş “Lombardlar haqqında” qanun layihəsinin isə üçüncü oxunuşda müzakirəsi payız sessiyasına saxlanılıb.

Payız sessiyasının qanunvericilik işlər planına “Rəqabət Məcəlləsi”nin layihəsinin daxil edilməsi də gözlənilir. Belə ki, uzun müddətdir hazırlandığı haqqında iddialar ortaya atılan məcəllənin layihəsi artıq hökumətə təqdim edilib.

Milli Məclis “Uşaq hüquqları haqqında” yeni qanun layihəsini də müzakirəyə çıxarmağa hazırlaşır. Layihənin artıq hazır olduğu, payız sessiyasında işlər planına daxil ediləcəyi düşünülür.

Payız sessiyasında maliyyə-bank sektorunun tənzimlənməsi sahəsində də mühüm layihələrin müzakirəyə çıxarılacaq. Bundan başqa ictimai birliklər, siyasi partiyalar və vətəndaş cəmiyyəti haqqında yeni qanun layihələrinin hazırlanması və müzakirəsi haqqında qərarlar da parlamentin payız sessiyasına planlaşdırılıb.

# Emin Əmrullayev Britaniyada səfərdədir

***Təhsil naziri Emin Əmrullayev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına işgüzar səfəri çərçivəsində Böyük Britaniyanın ən böyük biznes şəbəkəsi olan ”British Expertise” təşkilatında təhsillə bağlı ən müasir texnoloji xidmətlər təqdim edən təhsil qurumlarının nümayəndələri ilə görüşüb.***



Nazirlikdən “Unikal”a verilən xəbərə görə, görüş zamanı təhsil naziri hazırda ölkəmizdə təhsil sistemində həyata keçirilən innovasiya və texnologiya üzrə islahatlarla bağlı məlumat verib, gələcəkdə bu islahatların daha da genişlənməsi perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin 44 günlük Vətən müharibəsindən, ölkə Prezidentinin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən sonra işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq işləri və xüsusilə də yaranmış imkanlar müzakirə edilib.

İyulun 20-də isə Emin Əmrullayev Lordlar Palatasında Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun təşkilatçılığı əsasında dünyanın və Böyük Britaniyanın Vorvik (University of Warwick), Nyukasl (Newcastle University), Durham (Durham University), Lester (University of Leicester) və s. kimi nüfuzlu universitetlərinin rəhbərləri və nümayəndələri ilə görüşüb.

Görüş zamanı nazir hazırda ölkəmizdə ali təhsil sahəsində həyata keçirilən layihə və təşəbbüslər, o cümlədən “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” və “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” barədə məlumat verib.

Görüşdə gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

# Fazil Məmmədov Alimpaşa Məmmədovun obyektlərini ələ keçirir

## "Soyuq intiqam" iddiası... - Sabiq icra başçısı ilə keçmiş nazir arasında nələr baş verir?

***Azərbaycanın sabiq vergilər naziri Fazil Məmmədov özünə yaxın olan şəxslər vasitəsilə Şəmkir rayon İcra Hakimiyyətinin hazırda həbsdə olan sabiq başçısı Alimpaşa Məmmədova məxsus obyektlərin bir hissəsini almağa başlayıb. Bu barədə adıçəkilən rayondakı qaynaqlar iddia edirlər.***





Xatırladaq ki, bundan öncə belə məlumatlar yayılmışdı ki, bir ildən çoxdur həbsdə olan A.Məmmədov ən azından ev dustaqlığına buraxılmaq üçün müəyyən cəhdlər edib, lakin bunlar alınmadıqda keçmiş himayədarı, sabiq Vergilər naziri Fazil Məmmədovla pozulmuş münasibətlərini bərpa eləmək qərarına gəlib.

”Bu da səbəbsiz deyil. Əli hər yerdən üzülən eks icra başçısı uzun müddət həbsdə qalmamaq üçün sabiq nazirin köməyinə bel bağlamağa başlayıb. Məlum olduğu kimi, Alimpaşa Məmmədov keçmiş ”vergi şefi”nin öz kadrıdır, yaxın adamlarından biri olub. F.Məmmədov nazir olarkən onu ən sadiq və etibarlı adamı kimi kurasiyasında olan Şəmkirə göndərib. Bu rayon və onun ətrafında Fazil Məmmədovun milyonlarla yatırım etdiyi müəssisələr, özəl mülklər, tərpənməz əmlaklar var idi” deyə ”Unikal” qəzeti olaraq ötən saylarımızdan birində yazmışdıq.

Onu da əlavə etmişdik ki, 2019-cu ildə media sabiq icra başçısının öz himayədarına qarşı çıxdığı barədə məlumatlar yaymağa başladı. Həmin məlumatlarda iddia edilirdi ki, Alimpaşa Məmmədov sabiq nazirə rayon ərazisində sahibkarlıq fəaliyyəti göstərməyi qeyri-rəsmi olaraq qadağan edib. Hətta bəzi KİV-lər bir qədər də irəli gedərək keçmiş başçının F.Məmmədova Şəmkirə ayaq basmamaq barədə ismarıc yolladığını yazırdı.

Belə iddialardan birində deyilirdi: ” Fazil Məmmədovun yaxın adamlarından biri - qardaşının qaynı Turan Səidov bir vaxtlar sabiq nazirin rayondakı təmir-tikinti işlərini görürmüş. Onun “21-ci əsr” adlı şirkəti də var. Hazırda bu şirkətin fəaliyyəti iflicdi. Bildirilir ki, Şəmkirin icra başçısı özünün yaxın adamlarına yeni şirkətlər açıb, rayonla bağlı bütün təmir-tikinti işlərini yaxın çevrəsinin əli ilə gördürür.

Alimpaşa Məmmədov isə Turanı yanına çağıraraq deyib ki, “bir daha ayağın Şəmkirə dəyməyəcək”. Ardınca da elə Fazil Məmmədova ismarışını yollayıb: “Ona deyin, əziyyət çəkib ofis təmir etdirməsin, mən bu rayonda başçı olan müddətdə Fazil müəllim burda yaşaya, bizneslə məşğul ola bilməz”. Deyilənə görə, başçının bu ismarışından sonra Fazil Məmmədov Şəmkiri tərk edib, Bakıya gəlib. Yaxınlarına deyib ki, o, Alimpaşayla üz-üzə gəlmək, konflikt yaratmaq istəmir”.

Bu və bənzər iddialar həmin vaxt təsdiqlənməsə də, təkzib də edilməmişdi.

Üstəlik, ən müxtəlif KİV-lərin bu barədə yazmasından aydınlaşırdı ki, iddialardan hansının doğru, hansının şişirtmə olmasından asılı olmayaraq bir şey dəqiqdir: sabiq nazirlə keçmiş icra başçısının arasından ”qara pişik” keçib!

Əvvəlki saylarımızda da vurğuladığımız kimi, bəziləri onların münasibətlərindəki soyuqlaşmanı maraq toqquşması, bəziləri də F.Məmmədovun tezliklə ”vurulacağını” bilən A.Məmmədovun özünüqoruma tədbiri kimi qiymətləndirirdi. Yəni ehtimal olunurdu ki, sabiq ”vergi şefi”nin vəzifəsindən kənarlaşdırılacağını öyrənən, yaxud təxmin edən sabiq icra başçısı onun güdazına getməmək üçün tədbirli davranmaq qərarına gəlib və...

Və bir zamanlar sayəsində yüksək vəzifəyə gəldiyi F.Məmmədovla körpüləri ”atmağa” üstünlük verib!

Lakin A.Məmmədovun həmin gedişi effekt vermədi, o, sabiq nazirin ”vurulmasından” sonra nəinki kreslosunu, hətta azadlığını itirdi.

İndi isə söz-söhbətlər bu yöndədir ki, A.Məmmədov uzun müddətli həbsdə qalmamaq üçün F.Məmmədovla yenidən yaxınlaşmağa, köhnə səhvlərinin bağışlanmasına çalışır. Bununla da keçmiş nazirin onu həbsdən çıxarmaq üçün imkanlarını işə salacağına ümid edir.

Gözlənilirdi ki, bu ümid doğrulmayacaq. Ancaq son iddialar əksini düşünməyə əsas verir. Belə ki, A.Məmmədovun yaxınlarına məxsus bir sıra gəlirli obyektlərin əl dəyişdiyinə dair məlumatlar var. Həmin obyektlərin keçmiş ”vergi şefi” ilə bağlantılı olan şəxslərin nəzarətinə keçəcəyi, əvəzində isə F.Məmmədovun eks-ortağını ağır həbs cəzasından qurtarmağa çalışacağı, hətta onun barəsində şərti həbs qərarı verilməsinə cəhd edəcəyi iddia olunur.

Düzdür, söhbətin A.Məmmədovun ailə üzvlərinə məxsus olan hansı obyektlərdən getdiyi dəqiq bəlli deyil, ancaq istənilən halda sabiq nazirin keçmiş icra başçısını indiki vəziyyətindən hətta ən az cəza ilə qurtarmasının mümkün olmadığı vurğulanır. O da iddia edilir ki, F.Məmmədov sadəcə qisas məqsədilə keçmiş kadrının ”salam-əleykini” alıb. Bununla da onu bir zamanlar özünə qarşı ”xəyanətinə” görə mənəvi olaraq ”cəzalandırmaq”, bir az da dəqiqləşdirsək, eksbaşçıdan intiqam almaq istəyir...

***Toğrul Əliyev***

# Dövlət Turizm Agentliyi tənqid hədəfində

## Fuad Nağıyevin menyüsünə: Əbülfəs Qarayevin zamanından yığılıb qalan problemlər hələ də yerində "dağ kimi" durur



***Ölkə başçısının 20 aprel 2018-ci il tarixli "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam"ına əsasən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əsasında Dövlət Turizm Agentliyi yaradıldı.***

Qurumun rəsmi saytında oxuyuruq: "Agentlik turizm sahəsində vahid dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, turizm sahəsində normayaratma fəaliyyətinin icrası, dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni, turizmin inkişafı məqsədi ilə digər dövlət orqanları, müəssisələri və təşkilatları, habelə fiziki və hüquqi şəxslər, o cümlədən beynəlxalq və qeyri-hökumət təşkilatları arasında əlaqəli fəaliyyəti təmin etmək, qoruqların ərazilərindən məqsədyönlü istifadəni təşkil etmək və onların qorunub saxlanılmasını təmin etmək, milli kulinariya nümunələrinin qorunmasını və təbliğini təmin etmək istiqamətində fəaliyyət göstərir".

Lakin bir çoxlarının fikrincə, burada "fəaliyyət göstərir" ifadəsi nisbi məzmun daşıyır, yəni qurumun fəaliyyəti bir o qədər də qənaətbəxş sayıla bilməz. Məsələ ondadır ki, Əbülfəs Qarayevin nazir olduğu dövrdə ölkənin turizm sektorunda çoxsaylı problemlər yaranmış, bu problemlərin həlli istiqamətində təsirli addımlar atılmadığından onlar illər uzunu yığılıb qalaqlanmışdı. Elə ona görədir ki, ölkə rəhbərliyi sonda Mədəniyyət və Turizm Nazirliyinin əsasında Dövlət Turizm Agentliyinin yaradılmasını məqsədəuyğun gördü. Bundan sonra cəmiyyətdə, eləcə də sektorun özündə ciddi gözləntilər yarandı. Hesab edilirdi ki, Agentlik çoxillik problemləri qısa vaxtda aradan qaldırmağa, ölkə turizmində tamamilə yeni səhifə açmağa, bu sahənin dövlət xəzinəsinə külli miqdarda gəlir gətirməsini təmin etməyə nail olacaq. Ancaq qurumun yaradılmasından nə az, nə çox düz 4 ildir keçsə də, onun fəaliyyətini qənaətbəxş saymaq mümkün deyil. Düzdür, 2020-ci ildən etibarən dünyanı cənginə alan və Azərbaycandan da yan keçməyən koronavirus pandemiyası bütün sahələr kimi turizm sektoruna da ciddi zərbə vurdu. Bundan başqa, ölkənin inhisarçı hava yolu şirkəti AZAL-ın fantastik uçuş biletləri və ya bəzi məmurların hələ də turizm sahəsində öz biznes maraqlarını qoruması sözügedən sahədə sıçrayışa nail olmağı əngəlləyən amillərdir. Lakin bir çox mütəxəssislərin fikrincə, bütün bu amillərdən kənarda ölkə turizminin inkişafına mane yaradan problemlər də mövcuddur və həmin problemlərin həlli istiqamətində Dövlət Turizm Agentliyinin effektiv fəaliyyətindən danışmaq, nə yazıq ki, mümkün deyil.

Məsələn, bir müddət əvvəl məlum oldu ki, 2022-ci ildə Azərbaycana gələn hər 7 turistdən biri ölkədən narazı gedib. Ən çox narazılar arasında ərəb turistləri, avropalılar, hətta Rusiya və britaniyalılar da var. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yaymışdı.

Komitənin açıqladığı hesabata görə, 2022-ci ilin ilk 4 ayında xaricdən Azərbaycana 220 min turist gəlmişdi, onlardan 32,5 min nəfəri isə göstərilmiş xidmətləri qənaətbəxş saymışdı. Ümumilikdə narazı turistlərin sayı ümumi turist axınında orta hesabla 14,8% təşkil eləmişdi.

Doğrudur, müstəqil ekspertlər yuxarıdakı rəqəmlərin daha yüksək olduğuna şübhə etmirlər, lakin rəsmi rəqəmlər belə ölkəmizə gələn hər 7 nəfərdən birinin narazı qayıtdığını göstərir. Bu isə kifayət qədər yuxarı göstəricidir və narahatlıq doğurur.

Azərbaycanın turizm sektorunda xidmət sarıdan ciddi problemlər olduğu hələ Əbülfəs Qarayevin Mədəniyyət və turizm naziri olduğu dövrdən bəllidir. Lakin belə görünür ki, sözügedən problemlər aradan qalxmayıb, hələ də davam edir. Dövlət Turizm Agentliyinin bu istiqamətdə genişmiqyaslı araşdırmalarına, təhlillərinə, bu araşdırmalardan, təhlillərdən yola çıxaraq təsirli addımlar atması lazım deyilmi? Əlbəttə, lazımdır, özü də hava və su kimi! Ancaq reallıq hələ ki, bu barədə optimis danışmağa əl yeri qoymur...

Daha bir köhnə-yeni problem: qiymətlərin yüksəkliyi! Bölgələrdə yerləşən hotel və restoranlardakı qiymətlər bir çox hallarda Bakının ən bahalı hotel və restoranlarındakı qiymətlərlə müqayisədə belə yüksəkdir. Üstəlik, bu xidmətin istənilən səviyyədə olmaması fonunda baş verir. Yəni qiymətlərlə xidmətlər arasında kəskin uçurum var.

İstirahət mərkəzlərində ən çox narazılıq doğuran məqamlardan biri isə yemək masalarına 50-200 manat arası depozit qiymətin qoyulmasıdır. Bir az da dəqiqləşdirsək, 4 nəfərdən ibarət ailənin nə yeyib-içməsindən asılı olmayaraq, sonda 200 manat pul ödənməlidir. Otelin bir günlük qiyməti də 100-200 manat... Belə çıxır ki, bir ailənin 3 günlük istirahəti 1000-1500 manata başa gəlir. Bu da, Anadolu türkləri demiş, "kimse kusura bakmasın ", əməlli-başlı soyğunçuluqdur.

Ən acınacaqlısı isə odur ki, Dövlət Turizm Agentliyi bütün bunları seyr etməklə kifayətlənir. Görünür, turizm mövsümündən daha çox qazanmaq istəyən yalnız hotellər, restoranlar, istirahət mərkəzləri deyil, həm də adıçəkilən qurumun özüdür...

Fuad Nağıyevin rəhbərlik etdiyi Agentlik yuxarıda sadalanan, eləcə də toxunmadığımız çoxsaylı problemlərin həlli istiqamətində effektiv addımlar atmayacağı təqdirdə, belə görünür, ölkə turizminin durumu Əbülfəs Qarayevin Mədəniyyət və Turizm Nazirliyinə rəhbərlik etdiyi dövrdən fərqlənməyəcək. Dəyişən yalnız tənqid edilən ünvanlar olacaq: dünən Əbülfəz müəllimlə Mədəniyyət və Turizm Nazirliyi ittiham obyekti idisə, sabah da Fuad müəllimlə Dövlət Turizm Agentliyi barədə giley-güzarlar baş alıb gedəcək.

***Sənan Mirzə***

# "Ermənistandan konkret addımlar görmək istəyirik" - Çavuşoğlu



***Biz Türkiyə olaraq Cənubi Qafqazda sülh istəyirik. Qarabağ Zəfərindən sonra Azərbaycanın təklifləri, bizim də yanaşmamız ortadadır.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu TRT Haber telekanalına müsahibəsində deyib.

"Böyük dövlət olaraq bizim jest etməyimiz normaldır", - nazir qeyd edib.

O xatırladıb ki, Azərbaycanla Ermənistan arasında müxtəlif vaxtlarda Moskva və Brüsseldə görüşlər keçirilib. Eyni zamanda, sərhədlərin delimitasiyası üzrə komissiyalar yaradılıb, əhatəli sülh sazişi üçün təklif irəli sürülüb.

"Azərbaycan da, Türkiyə də bu məsələdə səmimidir. Ermənistandan isə konkret addımlar görmək istəyirik. Biz bu prosesi Azərbaycanla koordinasiya etməliyik. Çünki biz "bir millət, iki dövlət"ik", - XİN rəhbəri diqqətə çatdırıb.

# Hesablama Palatasında media təmsilçiləri ilə görüş oldu

***Hesablama Palatasında media təmsilçilərinin iştirak ilə Azərbaycan milli mətbuatının yaranmasının 147 illiyinə həsr olunmuş "Hesablama Palatasının fəaliyyətinin ictimaiyyətə çatdırılmasında medianın rolu" mövzusunda tədbir keçirilib.***




"Unikal" xəbər verir ki, ilk öncə torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhid olan igidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra tədbirdə Milli Mətbuatın yaranma və inkişaf tarixinə nəzər salınıb, ümummilli lider Heydər Əliyev kütləvi informasiya vasitələrinin nümayəndələrinə hər zaman xüsusi diqqət və qayğı göstərməsindən, həmçinin Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin ölkə mətbuatının daha da inkişafı məqsədilə həyata keçirdiyi tədbirlərdən bəhs olunub.

Həmçinin tədbirdə Azərbaycanın müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, mətbuat sahəsində də inkişaf və tərəqqi əldə edilməsi vurğulanıb.

Daha sonra Hesablama Palatasının fəaliyyəti və cari ilin 6 ayı ərzində görülən işlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verilməklə müvafiq təqdimatlar keçirilib, media qurumları ilə işin peşəkar səviyyədə qurulmasından bəhs edilib.

Qeyd olunub ki, media nümayəndələri və ictimaiyyət Palatanın gördüyü işlər barədə məlumatları qurumun rəsmi internet səhifəsindən və sosial mediadakı hesablarından daha operativ şəkildə əldə edə bilərlər.

Sonda məlumatların peşəkar səviyyədə hazırlanması və əlçatanlığın təmin olunmasına görə media nümayəndələrinə minnətdarlıq edilib.

# Son illər həbs edilən generallar - SİYAHI

***Son illər Azərbaycanda bir neçə general həbs olunub. Onların bəziləri bu il, digərləri isə əvvəlki illərdə həbs edilib. Həmin şəxslər vəzifə səlahiyyətlərindən sui-istifadə, külli miqdarda rüşvət alma və s. maddələrlə cinayət məsuliyyətinə cəlb ediliblər.***

"Unikal" həbs edilən generalları oxuculara təqdim edir:

Həbs olunan generallardan biri Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi, general-mayor Nizami Məmmədovdur. Ötən ay onun həbs müddəti uzadılıb. Hazırda cinayət işi üzrə ibtidai istintaq davam edir. Məlumata görə, Nizami Məmmədov 80 milyon 600 min manat mənimsəməkdə təqsirləndirilir.

Digər həbs edilən general Ehtiram Xəlilovdur. Belə ki, Dövlət Gömrük Komitəsinin "Azərterminalkompleks" birliyinin sabiq direktoru, gömrük general-mayoru Ehtiram Xəlilov Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi xüsusi əməliyyat zamanı saxlanılıb.

57 yaşlı E.Xəlilov 1997-ci ildən Gömrük orqanlarında xidmət etməyə başlayıb. Həmin ildən başlayaraq Bakı Baş Gömrük idarəsinin Bərə keçid postunun inspektoru və Gömrük rəsmiləşdirilməsi şöbəsinin inspektoru vəzifələrində işləyib. 2000-ci ildə Enerji Gömrük idarəsinin Liman Gömrük postunun rəisi, 2003-cu ildə Enerji Gömrük idarəsinin Səngəçal postunun rəisi vəzifələrində çalışıb. 2003-2013-cü illərdə Sumqayıt Baş Gömrük idarəsinin rəisi, 2013-2018-ci illərdə Aksiz Baş Gömrük idarəsinin rəisi işləyib. 2018-ci ildən həbs edilənə qədər Dövlət Gömrük Komitəsi "Azərterminalkompleks" birliyinin direktoru olub. 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunub.

DTX-nin yaydığı məlumatda bildirilir ki, "Azərterminalkompleks" birliyinin direktoru vəzifəsində işləyən Xəlilov Ehtiram Səyyaf oğlunun xidməti vəzifələrinin icrası ilə əlaqədar qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməklə qanunvericiliklə müəyyən edilmiş gömrük hərraclarının təşkili və həyata keçirilməsi qaydalarını pozaraq ayrı-ayrı şəxslərlə qabaqcadan əldə edilmiş razılığa əsasən dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin real dəyərindən aşağı qiymətləndirilməsini və satılmasını təmin etməklə dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmasına, bu qanunsuz hərəkətlərə görə tabeçiliyində işləyən şəxslər vasitəsilə S.A.Qulamov, R.Ç.Hacıyev, S.F.Tağıyev, E.V.İbrahimov, T.D.Pənahov, S.H.Abdullayev, İ.M.Musayev, E.Y.Hümbətov, Ə.S.Əliyev və digər şəxslərdən təkrar külli miqdarda rüşvət almasına əsaslı şübhələr yaranıb.

Cinayət işi üzrə Ehtiram Xəlilov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2 və 311.3.3-cü (təkrar külli miqdarda rüşvət alma) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilib, 22 iyun 2022-ci il tarixdə məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Həbs edilən digər general-



mayor Məsum Rəsulov Dövlət Gömrük Komitəsinin Əməliyyat-istintaq Baş İdarəsinin rəisi idi. O da Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi xüsusi əməliyyat zamanı saxlanılıb.

48 yaşlı M.Rəsulov 2006-cı ildə Dövlət Gömrük Komitəsinin Gömrük Sahəsində Hüquqpozmalara qarşı mübarizə Baş idarəsi Əməliyyat İdarəsinin rəisi kimi fəaliyyətə başlayıb. 2018-ci ildə Gömrük Sahəsində Hüquqpozmalara qarşı mübarizə Baş idarəsinin rəisi vəzifəsində çalışıb. Ölkə başçısının 29 yanvar 2019-cu il tarixli sərəncamı ilə Rəsulov Məsum Eynalı oğluna Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin general-mayoru ali xüsusi rütbəsi verilib. "Dövlət qulluğunda fərqlənməyə görə" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

DTX-nin yaydığı məlumatda qeyd olunub ki, Dövlət Gömrük Komitəsinin Əməliyyat-istintaq Baş İdarəsinin rəisi vəzifəsində işləyən Rəsulov Məsum Eynalı oğlunun öz vəzifə səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməklə, qabaqcadan əldə edilmiş sövdələşməyə uyğun olaraq Dövlət Gömrük Komitəsinin digər vəzifəli şəxsləri vasitəsilə "Azərterminalkompleks" Birliyi tərəfindən hüquqi xidmət, reklam işləri, təlim-tədris və texniki servis xidmətlərinin göstərilməsi adı altında "Azerbaijan Legal Consulting İnternational Services" MMC, "Nanoc" MMC, "Veqa-Servis" MMC, "Meqan Group" MMC, "Omega Servis IKO" MMC, "Delta Servis İKO" MMC və digər şirkətlərin hesabına köçürülən, müvafiq işlər görülmədən və xidmətlər göstərilmədən nağdlaşdırılaraq geri qaytarılan xüsusilə külli miqdarda dövlət büdcəsi vəsaitini mənimsəməsinə əsaslı şübhələr müəyyən olunub.

Həmçinin Məsum Rəsulovun, müsadirəsi nəzərdə tutularaq "Azərterminalkompleks" Birliyində saxlanılan müxtəlif adda siqaret məhsullarını Silahlı Qüvvələrimizin düşmənlə təmas xəttində xidmət edən hərbi qulluqçularına paylanılması üçün Müdafiə Nazirliyinin aidiyyəti struktur bölmələrinə deyil, şəxsi münasibətdə olduğu əməkdaşına müvafiq tələblərdə rəsmiləşdirmə aparılması ilə bağlı qanunla müəyyən edilmiş prosedur qaydaları pozmaqla təhvil verərək külli miqdar dəyərində siqaret məhsullarının təyinatı üzrə çatdırılmaması nəticəsində dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmasına əsaslı şübhələr müəyyən edilib.

Məsum Rəsulov 14 iyul 2022-ci il tarixdə şübhəli şəxs qismində saxlanılaraq, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda dövlət əmlakını mənimsəmə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilib.

Ötən il oktyabrın 27-də Bakı Hərbi Məhkəməsində 20 il öncə Ukraynada iş adamı Elçin Əliyevi öldürməkdə təqsirləndirilən, sabiq birlik komandiri, general-leytenant Rövşən Əkbərova hökm oxunub. Hökmə əsasən, R.Əkbərov 10 il müddətinə azadlıqdan məhrum edilib. Bundan başqa, o, dəymiş mənəvi ziyana görə zərərçəkən tərəfə 40 min 10 manat təzminat ödəməlidir. R.Əkbərovun hərbi rütbəsi və fəxri adlarının alınması isə zəruri hesab edilməyib.

Eyni zamanda məhkəmə R.Əkbərovun hərbi rütbəsini və fəxri adlarının alınmasını zəruri hesab etməyib. Buna səbəb işdə hərbi rütbənin alınması ilə bağlı təqdimat olmadığı göstərilib.

2021-ci ilin sentyabr ayında Naxçıvan Muxtar Respublikasının sabiq daxili işlər naziri Əhməd Əhmədova hökm oxunub. Eks-nazir 11 il müddətinə azadlıqdan məhrum edilib. O, 2000-ci ildən 2017-ci ilədək Naxçıvanın daxili işlər naziri olub. Həmçinin, məhkəmənin hökmü ilə Ə.Əhmədov "daxili xidmət general-mayoru" ali-xüsusi rütbəsindən, "polis general-leytenantı" ali-xüsusi rütbəsindən, "general-leytenant" ali hərbi rütbəsindən və "Azərbaycan Bayrağı" ordenindən məhrum edilib

O, 2015-2017-ci illərdə, cəmi 2 il ərzində nazirliyə 5 milyon manatdan çox zərər vurub, vətəndaşlardan isə 9 milyon manatdan çox rüşvət alıb.

Həbs edilən generallardan biri də ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) sabiq idarə rəisi Mövlam Şıxəliyevdir. Sabiq MTN generalı mütəşəkkil dəstə halında ümumilikdə 14 milyon 292 min manat məbləğində pul vəsaitini rüşvət qismində, 5 milyon 77 min manat məbləğində özgə əmlakını hədə-qorxu ilə tələb edib almaqda, həmçinin səlahiyyət həddini aşmaqda və 9 halda cinayət işləri üzrə sübutları saxtalaşdırmaqda ittiham edilir. Hazırda onun məhkəməsi davam edir.

Məhkəməsi davam edən generallardan biri də ləğv edilmiş MTN-nin Hərbi Əks-Kəşfiyyat İdarəsinin sabiq rəisi general-mayor Nizami Şirinovdur. O, general-mayor rütbəsini MTN-də idarə rəisi vəzifəsinə gətirildikdən iki il (2007) sonra alıb. N.Şirinov vəzifədə ikən müxtəlif şəxslərdən MTN-nin Akademiyasına qəbul etdirmək, xidmət yerini dəyişdirmək, habelə tabeliyində olan əməkdaşın işdən çıxarılması üçün müvafiq tədbirlərin görülməməsi, xidmət üzrə ümumi himayədarlıq edilməsi müqabilində 3 halda külli miqdarda rüşvət tələb edərək almaqda, 3 halda isə ayrı-ayrı şəxslərin külli miqdarda əmlaklarını və pul vəsaitlərini hədə-qorxu ilə tələb edərək ələ keçirməkdə, habelə vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə ittiham olunur. Bakı Hərbi Məhkəməsində məhkəmə prosesi davam edir.

Hazırda həbs həyatı yaşayan general-mayor Elçin Quliyev vaxtilə ləğv edilmiş MTN-də Antiterror Mərkəzinin rəisi olub. "MTN olayları"nda onun müavini İlqar Əliyev də həbs edilib. Polkovnik İ.Əliyev təcridxanada özünü asaraq intihar etdikdən sonra E.Quliyev cinayət işinə təqsirləndirilən şəxs qismində cəlb edilib. General E.Quliyev və əməkdaşları qanunsuz azadlıqdan məhrum etmədə, mütəşəkkil dəstə formasında quldurluq törətməkdə, hədə-qorxu ilə tələb etmədə, əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozmada, vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə, vəzifə səlahiyyətlərini aşmaqda və rüşvət almaqda təqsirləndirilib.

O, 2017-ci ilin noyabrında məhkəmənin hökmü ilə 10 il 6 ay müddətinə azadlıqdan məhrum olunub.

***Anar Kəlbiyev***

## 6.3.13. informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İnformasiya cəmiyyəti necə formalaşdırılıb?



***İnformasiya cəmiyyəti şəraitində vətəndaşların informasiya əldə etmək hüquqlarının təmin olunmasına hərtərəfli şərait yaradılır, ölkənin qlobal internet şəbəkəsinə çıxış potensialı artırılacaq, tranzit informasiya xidmətləri genişləndirilir Azərbaycanda informasiya cəmiyyətinin formalaşmasına dövlət qayğısı göstərilir.***

Təhsil, səhiyyə və digər sosial sahələrdə, iqtisadiyyatda, biznes fəaliyyətində, gündəlik həyatda İKT-nin imkanlarından istifadə səviyyəsi nəzərəçarpacaq dərəcədə artıb. Gündəlik həyatımızda da mobil telefonun imkanlarından istifadə edən, informasiya alan insanlarla rastlaşırıq. Bəs görəsən son illər informasiya cəmiyyətinin qurulması istiqamətində hansı işlər görülüb?

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi sorğumuza cavabda bildirilib ki, ölkədə ən son texnoloji yeniliklər tətbiq edilib, internetə simli, simsiz, mobil texnologiyalara çıxış imkanları yaradılıb. Bunun sayəsində əhalinin 75 faizi internet, onların 65 faizi isə genişzolaqlı internet istifadəçisinə çevrilib. Evlərdə, iş yerlərində istifadə edilən kompüterlərin sayı artmışdır. Mobil sektor sürətlə inkişaf edib, 3G və 4G xidmətləri tətbiq olunub. İlk telekommunikasiya peyki “Azerspace-1” və yer səthinin müşahidə peyki “Azersky” orbitə çıxarılıb və bununla da Azərbaycan kosmik ölkələr sırasına qoşulub.

İKT üzrə yüksəkixtisaslı kadr hazırlığı genişləndirilib, “elektron hökumət” üzrə genişmiqyaslı layihələr həyata keçirilib və cəmiyyət üçün vacib olan elektron xidmətlər təşkil edilibdir. Nazirlikdən bildirdilər ki, ölkədə informasiya cəmiyyətinin formalaşdırılması üzrə siyasətin davam etdirilməsi, yeni inkişaf prioritetlərinin müəyyənləşdirilməsi, dövlət idarəçiliyində, biznes sektorunda və ümumilikdə cəmiyyətdə hər bir vətəndaşın İKT-nin imkanlarından faydalanması üçün əlverişli şəraitin daha da genişləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli 359 nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya” təsdiq edilib. Milli Strategiyanın icrasını təmin etmək məqsədilə “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı” hazırlanıb.

Dövlət Proqramında Milli Strategiya ilə müəyyən edilmiş 8 istiqamətdən 7-si üzrə konkret tədbirlər nəzərdə tutulub. Milli Strategiyanın “elektron hökumət”in inkişafı” istiqamətinin yerinə yetirilməsi üzrə tədbirlər dövlət proqramı çərçivəsində həyata keçirilib. Dövlət Proqramının hazırlanmasında beynəlxalq təcrübə, texnoloji yeniliklər və inkişaf meyilləri nəzərə alınıb. Vətəndaş, cəmiyyət, dövlət prioritetləri və onların informasiya cəmiyyətinin imkanlarından səmərəli istifadəsi əsas götürülüb. Proqramın məqsədi Milli Strategiyada informasiya cəmiyyətinin inkişaf etdirilməsi üzrə qarşıya qoyulan əsas məqsəd və vəzifələrin, fəaliyyət istiqamətlərinin həyata keçirilməsinin təmin edilməsidir. İKT infrastrukturunun cari və gələcək tələbatı nəzərə alınmaqla inkişaf etdirilməsi, onun əsasında keyfiyyətli xidmətlər göstərilməsi və onlara çıxış imkanlarının təmin olunması əsas məqsədlərdəndir. Həmçinin ölkənin tranzit informasiya dəhlizi imkanlarının genişləndirilməsi, beynəlxalq internet magistrallarına alternativ və yüksəksürətli birləşmələrin təmin edilməsi diqqətdədir. Rəqabətqabiliyyətli və ixracyönlü yüksək texnologiyalar sektorunun inkişaf etdirilməsi, elmtutumlu və yüksək texnoloji məhsulların istehsalı və onların dünya bazarına çıxışına şərait yaradılması əsas hədəfdir. Yerli və xarici investisiyaların stimullaşdırılması, qabaqcıl təcrübənin və yeni texnologiyaların idxalı və texnoloji transferin təmin olunması əsas məqsədlər sırasındadır. Yüksək texnologiyalar sahəsində elmi-texniki potensialın gücləndirilməsi, nüvə, nano və kosmik texnologiyaların, biotexnologiyaların inkişafı üzrə elmi tədqiqatların genişləndirilməsi, informasiya cəmiyyətinin tələblərinə uyğun yeni bilik və texnologiyaların yaradılması, yayılması nəzərdə tutulub.

İnformasiya cəmiyyəti şəraitində normativ hüquqi tənzimləmə sisteminin təkmilləşdirilməsi, vətəndaşların informasiya əldə etmək hüququnun səmərəli təmin edilməsi və qorunması da əsas məqsəddir. Buraya yüksək texnologiyalar sahəsinin tələblərinə cavab verən elmi və ixtisaslı kadrların hazırlanması, alim və mütəxəssislərin elmi fəaliyyətinin, gənclərin yeni təşəbbüslərinin və “start-up” layihələrinin dəstəklənməsi, ölkədə işçi qüvvəsinin keyfiyyətinin yaxşılaşdırılması, rəqabətədavamlı kadr potensialının formalaşdırılması məqsədi ilə peşə təhsili sistemində multimedia texnologiyalarının, distant təhsil və digər müasir tədris formalarının tətbiqinin genişləndirilməsi də daxildir.

Həmçinin cəmiyyətin bütün təbəqələrinin İKT-dən istifadə imkanlarının genişləndirilməsi, bilik və bacarıqlarının yüksəldilməsi və yeni texnologiyalara inamın artırılması, informasiya təhlükəsizliyinin təmin edilməsi, bu sahədə ümumi hazırlığın və maarifləndirmənin yüksəldilməsi nəzərdə tutulub. Milli kontentin zənginləşdirilməsi, müasir texnologiyaların tətbiqi ilə ölkənin milli-mədəni irsinin qorunub saxlanılması və əhalinin ondan istifadəsinin genişləndirilməsi, informasiya cəmiyyəti quruculuğunda dövlət-sahibkar-vətəndaş tərəfdaşlığının gücləndirilməsi, həmçinin beynəlxalq əməkdaşlığın ikitərəfli və çoxtərəfli müstəvidə genişləndirilməsi əsas məqsədlərdəndir. Bu tədbirlər ölkəmizdə İKT, o cümlədən genişzolaqlı şəbəkə infrastrukturu inkişaf etdiriləcək, əhalinin təhlükəsiz, ucuz və keyfiyyətli İKT xidmətlərinə artan tələbatının təmin olunmasına, sosial-iqtisadi sahələrdə və bütövlükdə cəmiyyətdə İKT-dən istifadəni genişləndirərək, vətəndaşların, xüsusilə aztəminatlı və sosial cəhətdən həssas əhali qruplarının informasiya cəmiyyətinin imkanlarından bəhrələnməsinə əlverişli şərait yaradır.

Nəticədə informasiya cəmiyyəti şəraitində vətəndaşların informasiya əldə etmək hüquqlarının təmin olunmasına hərtərəfli şərait yaradılır, ölkənin qlobal internet şəbəkəsinə çıxış potensialı artırılacaq, tranzit informasiya xidmətləri genişləndirilir. Ümumi daxili məhsulda İKT-nin, poçt və informasiya sektorunun payı artır. İKT sahəsinin sürətli inkişafında xarici və yerli investisiyaların, o cümlədən vençur maliyyələşmənin payı yüksəlir. Təhsilin bütün pillələrində İKT-nin tətbiqi və ondan istifadə genişlənir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Media nümayəndələri Ümummilli Liderin məzarını ziyarət edib

***Milli Mətbuat Günü münasibətilə Medianın İnkişafı Agentliyinin, Audiovizual Şuranın və Azərbaycan Mətbuat Şurasının nümayəndələri Fəxri xiyabana gələrək Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.***

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin məzarı önünə əklil qoyulub, böyük mütəfəkkirin xatirəsi anılıb.

## Forum iştirakçıları "Azərbaycan çap mətbuatı tarixinin inciləri" sərgisində



***Beynəlxalq Media Forumda iştirak məqsədilə Azərbaycanda səfərdə olan 20-dək ölkənin xarici media nümayəndələri və ekspertlərdən ibarət heyət ”Azərbaycan çap mətbuatı tarixinin inciləri” adlı sərgi ilə tanış olublar.***

”Unikal” xəbər verir ki, sərgi Heydər Əliyev Mərkəzində təşkil olunub.

Sərgidə 1920-ci illədək nəşr edilən və ölkənin ictimai-siyasi həyatında, milli və ümumb?ş?ri dəyərlərin təbliğində müstəsna rol oynayan mətbu nəşrlər haqqında məlumatlar, həmçinin müasir dövrdə ölkə ictimaiyyətinin maarifləndirilməsində xüsusi əhəmiyyətə sahib olan çap mətbuatı nümunələri nümayiş olunub.

Bildirilib ki, sərginin keçirilməsində əsas məqsəd Beynəlxalq Media Forumun iştirakçılarının zəngin inkişaf yolu keçmiş tarixi və müasir mətbu nəşrlər, onların yaranma tarixi və əsasını qoyan şəxslər, o cümlədən ideoloji istiqamətləri haqqında məlumat almaq, həmçinin bu mətbu nəşrlərin ictimai-siyasi və mədəni həyata, milli-mənəvi oyanışa təsiri, xalqın maariflənməsi və dövrün yeniliklərinin oxuculara çatdırılması istiqamətindəki fəaliyyəti barədə məlumatlandırılmasıdır.

Qeyd edək ki, Beynəlxalq Media Forumu sabah, iyulun 22-də Medianın İnkişafı Agentliyi tərəfindən Şuşa şəhərində təşkil olunacaq.

## “Şuşada Beynəlxalq Media Forumda iştirak edəcəyimə görə qürur duyuram"

***”Mədəniyyət paytaxtı Şuşada Beynəlxalq Media Forumda iştirak edəcəyimə görə qürur duyuram”.***




Bu sözləri ”Report”a açıqlamasında Türk Dövlətləri Təşkilatının layihə direktoru Ersin Aydoğan deyib.

O bildirib ki, bu tədbir türk dünyasında və digər dövlətlərlə iş birliyinin inkişafı üçün önəmlidir: ”Biz də Türk Dövlətləri Təşkilatı olaraq türk dövlətləri arasında mətbuat sahəsindəki əlaqələrin inkişafı üçün səy göstəririk. Bu mövzuda ən böyük dəstək Azərbaycandan gəlir. Təkcə siyasi və iqtisadi deyil, hər sahədə türk dövlətləri arasındakı münasibətləri daha irəliyə aparmağa davam edəcəyik”.



# Misilsiz igidlik nümunəsi

*Valeh İsbat oğlu Məmiyev 44 günlük İkinci Qarabağ müharibəsində misilsiz igidlik nümunəsi göstərərək adını əbədi olaraq Azərbaycanın qəhrəmanlıq tarixinə yazdı. Qartallar oylağı Yardımlı rayonunun Küreçi kəndində dünyaya göz açan Valeh "Təki Vətən sağ olsun!" deyərək özünü odun-alovun içinə atanda ömrünün iyirmi altıncı baharına təzəcən qədəm qoymuşdu. O, Vətənini, xalqını canından əziz bilirdi. Qarabağı azad görmək uşaqlıqdan Vətən sevgisinə tapınan Valehin bütün arzularının başında dururdu...*

Doğma Azərbaycanın hər guşəsini əziz bilən Valeh məqamında işğalçı düşmənin başını əzməkdən ötrü həyatını hərbiyə bağlayır. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alır. Təhsil ocağında Vətəninə sədaqətli olmaq, öz qanından, canından belə keçməklə onu mərdliklə müdafiə etmək eşqi ilə hərbi sirlərinə dərində yiyələnir. Həm də bir il Azərbaycan Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin Zabit ixtisas kursunda peşəkarlığını daha da artırır. Əfsanəvi sərkərdə, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun layiqli davamçısı olacağına and içən gənc leytenant Milli Orduda tank taqımının və bölüyünün komandiri vəzifələrində cəbhə bölgəsində Vətənin keşiyində durur. Xidmət zamanı fəallığı, nizam-intizamı ona hörmət gətirir. Vətənə bağlı zabit baş leytenant hərbi rütbəsinə yüksəlir. Tabeliyində olan əsgərlərə tələbkarlıqla yanaşmaqla bərabər, həm də onlara böyük qardaş qayğısı göstərir. Həmişə öyrənməklə öz sahəsinin kamil bilicisi olur. 2018-ci ildə döyüş taktikasını, şəxsi heyətlə iş qabiliyyətini nəzərə alıb Valehini hissədə tank bölük komandiri seçirlər. "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)"yubiley medalına, Müdafiə Nazirliyi tərəfindən fəxri fərmanları layiq görülür. Həmişə deyir ki, qanımız, canımız hesabına əzəli, əbədi yurd yerimiz Qarabağın bir qarışı belə düşmənin tapdağında qalmamalı...

Baş leytenant Valeh Məmiyev İkinci Qarabağ müharibəsində tam şəkildə Vətənə olan məhəbbətini sübut edir. Tank bölüyünün komandiri kimi düşmənlə qeyri-bərabər döyüşə başlayır. Hər gün də erməni dığalarına qan qusdurub ürəyincə onlardan qisasını alır. Cəbrayılda, Zəngilanda, Füzulidə cəsurluqla vuruşur. Azərbaycanın üçrəngli qələbə bayrağını Qarabağın azad olmuş torpaqlarında ucaldığını görən igid Vətən sevdalısının qəlbində ermənilərdən intiqam almaq alovu get-gedə güclənir. Şəxsi şücaəti qələbə üçün böyük təminat verir. Oktyabrın 23-də Qubadlı rayonunun yaşayış məntəqələrinin azadlığı uğrunda əsl cəsarət, qəhrəmanlıq və fədakarlıq göstərir. Müharibə meydanında yağıya qarşı son nəfəsə qədər döyüşüb şəhidlik zirvəsinə yüksəlir. Tarix yazan qəhrəman Valeh milyonların könlünə köç etməklə bərabər, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və digər medallarla təltif olunur.

Şəhidin atası İsbat kişi deyir: "Mən bir şəhid atası kimi oğlumla fəxr edirəm. Çünki oğlum Vətənini sevən, torpağını sevən bir qəhrəman idi. Vətənini sevdiyi üçün bütün döyüşlərdə qəhrəmanlıq göstərdi. Deyirdi ki, birinci Vətən, sonra ata, ana. Oğlum ölməyib. Qəlblərdə həmişə yaşayacaq".

Elə əsl həqiqətdə belədir. Valeh Vətən, torpaq uğrunda şəhid olduğu üçün onun həyatı günəş kimi parlaq olacaq.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Rayonlarda suvarma və lildən təmizləmə işləri görülür

*Mil-Muğan Hidroqovşağı 5 rayonda əkin sahələrinə xidmət edir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Mil-Muğan Hidroqovşağı İstismarı İdarəsi Azərbaycan Respublikası və İran İslam Respublikası ərazisində yerləşən 120 min hektar ərazinin suvarılmasına xidmət edir. Hidroqovşaq 1972-ci ildən bu günə qədər fəaliyyətini uğurla davam etdirir. İdarənin balansında olan əkin sahələrinin suvarılması üçün 3 kanaldan istifadə olunur. Bunlar Baş-Mil kanalı, Yuxarı-Mil kanalı və Yeni Xanqızı kanallarıdır. Suvarma kanallarında mütəmadi olaraq lildən təmizlənmə işləri aparılır. Suvarmada böyük rola malik olan Baş-Mil kanalının uzunluğu 37.2 km, hazırki sugötürmə qabiliyyəti isə 80 kub metrdir. Kanal Füzuli və Beyləqan rayonları ərazisindən keçir. Bu kanaldan Yuxarı-Mil və Yeni Xanqızı kanalları ayrılır. Yuxarı-Mil kanalı Füzuli, Xocavənd və Ağcabədi rayonlarının torpaq sahələrini su ilə təmin edir. Yeni Xanqızı kanalı isə Beyləqan və Ağcabədi rayonlarının əkin sahələrinin su təminatını yaxşılaşdırır.*



Hazırda adıçəkilən kanallarda lildən təmizləmə işləri aparılır. Bu günə qədər kanallardan torpaq həcminə görə 60 min kub metr lil çıxarılıb. Əllə isə 1000 kub metr hidro texniki qurğuların qarşısından çıxarılıb. İdarə tərəfindən 30 min kvadrat metr sahədə kol-kosdan təmizləmə işləri həyata keçirilib. Hidroqovşaq üzərində suyu vaxtında ərazilərə çatdırmaq üçün 6 ədəd seqmentvari qapı var ki, bu qapıların da hər birinin su buraxma qabiliyyəti 400 kub metr saniyədir. Bundan başqa Hidroqovşaqdan ayrılan suyun enerjisindən Füzuli Su Elektrik Stansiyasının fəaliyyətində də istifadə olunur.

Qeyd edək ki, Hidroqovşaq Baş-Mil kanalı, Yuxarı-Mil kanalı və Yeni Xanqızı kanalları vasitəsilə 5 rayona xidmət edir. Həmin rayonların ərazilərində hər il müxtəlif növ kənd təsərrüfatı bitkiləri əkilir və bol məhsul əldə edilir.

İmişlidə 54290 hektar torpaq sahəsi suvarılır. Dilqəm Şərifov bildirib ki, İmişli rayonunda suvarma mövsümü uğurla davam edir. Suvarmanın mütəşəkkil aparılması üçün İmişli Suvarma Sistemləri İdarəsi tərəfindən bütün hazırlıq işləri yekunlaşıb. Hazırlıq işləri sürətlə davam edir. İdarənin əsas vəzifəsi balansında olan suvarma kanallarını lildən təmizləmək, hidrotexniki qurğuların əsaslı və cari təmiri işlərini yerinə yetirməklə su istifadəcilərini su ilə təmin etməkdir. İdarənin balansında olan 25 ədəd nasos stansiyalar vasitəsilə 9515 ha əkin sahəsi suvarma suyu ilə təmin olunur. Bundan əlavə 6 ədəd dizel yanacağı ilə işləyən nasos aqreqatları vardır ki, bu da su tələbatına uyğun ərazilərdə quraşdırılır. Suvarma mövsümünə qədər bütün nasos stansiyalara baxış keçirilərək saz vəziyyətə gətirilib. Hazırda nasos stansiyaların hər biri işlək vəziyyətdədir.

İmişlidə əkin sahələri uzunluğu 1176 km-dən artıq olan suvarma kanalları vasitəsi ilə suvarılır. Bunlar əsasən Araz çayı və Yuxarı Qarabağ kanalından qidalanan Boztəpə, Qızıl arx, Köhnə Cənubi Muğan, Rəsul arx, Osmanov kanalı, Baş Muğan və Orta Muğan kanallarıdır. Bu günə qədər ümumilikdə 413 min kub metr həcmdə təsərrüfatlararası və təsərrüfatdaxili suvarma kanalları lildən təmizlənib, 1 kilometr uzunluqda nov kanal cari təmir olunub. Bundan başqa 7 ədəd hidrotexniki qurğunun cari təmiri həyata keçirilib.

İmişli rayonunda 2022-ci il təsərrüfat ilində 16630 ha sahədə taxıl, 7121 ha pambıq, 25145 ha yem bitkiləri, 550 ha bostan-tərəvəz, 150 ha qarğıdalı, 50 ha çoxillik bitgilər və 4650 ha həyətyanı sahələrdə əkin aparılıb və əkilən bütün bitgilər suvarma suyu ilə təmin olunub. Qeyd edək ki, İmişli Suvarma aSistemləri İdarəsi 54290 hektardan artıq suvarılan torpaqlara xidmət edir.

Yevlaxda 720 min kub metr həcmdə lildən təmizləmə işləri görülüb. Dilqəm Şərifov bildirib ki, Yevlax rayonunda əkin sahələrini mütəşəkkil, vaxtında və normasında suvarma suyu ilə təmin etmək məqsədilə Yevlax Suvarma Sistemləri İdarəsi tərəfindən 2022-ci il ərzində bir sıra işlər görülüb. Belə ki, cari təmir işləri hesabına rayonun əksər kəndlərini əhatə edən torpaq məcralı suvarma kanallarında 160 km uzunluğunda, kollektor-drenaj sistemində isə 108 km uzunluğunda lildən təmizləmə işləri yerinə yetirilərək su ötrücülüyü yaxşılaşdırılıb. Ümumilikdə idarənin öz gücünə istehsalat nəqliyyatı vasitələrinin hesabına 720 min m3 həcmində lildən təmizləmə işləri yerinə yetirilib və illik plan üzrə işlər davam etdirilir. Kollektor-drenaj şəbəkələrində lildən təmizləməsi nəticəsində şoran torpaqların münbitliyi artırılır və əkinə yararlı vəziyyətə gətirilir.

Yevlaxda əkin sahələri 2 üsulla, mexaniki və özü axımı ilə suvarılır. Öz axımı ilə 29496 hektar, mexaniki üsulla isə 12901 hektar sahə suvarma suyu ilə təmin edilir. Mexaniki üsulla suvarma 41 ədəd nasos stansiya vasitəsilə həyata keçirilir. İdarənin balansında 81 km beton kanal, 112 km nov kanal, 1015 km torpaq kanallar, 1313 km kollektor-drenaj şəbəkəsi və onlar üzərində 3847 ədəd müxtəlif tipli hidrotexniki qurğular, 89 ədəd subartezian və 5 ədəd artezian quyuları, 612 hektar meşə zolaqları mövcuddur. Rayon ərazisində müxtəlif kəndlərdə yerləşən subartezian quyularından nasazlıq yaranmış 36 ədədində və 14 ədəd nasos stansiyada təmir işləri aparılaraq saz vəziyyətə gətirilib. Yevlax rayon ərazisində 13007 hektar sahədə taxıl bitkisi əkilib və biçin işləri artıq yekunlaşıb. 2702 hektar sahədə isə pambıq bitkisi əkilib. Hazırda əkin sahələrini suvarma suyu ilə təmin edən suvarma kanallarında lildən təmizləmə işləri davam edir. Görülən işlər nəticəsində suyun axını sürətlənir və fermerlərə daha asan və səmərəli çatdırılır.

Qeyd edək ki, Yevlax Suvarma Sistemləri idarəsi Yevlax rayonunun 42397 hektar əkin sahəsini suvarma suyu ilə təmin edir. Əsas su mənbələri Kür çayı, Əlican çayı, Tərtər çayı, Yuxarı Qarabağ Kanalı, Yuxarı Şirvan Kanalı və subartezian quyularıdır.

***Hüseyn İsgəndərov***

# İpoteka predmetinin özgəninkiləşdirilməsi proseduru müəyyənləşib



***Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.***

Konstitusiya Məhkəməsindən "Unikal"a verilən xəbərə görə, iclasda Şirvan Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Mülki Məcəlləsinin 312.4-cü və "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 30.1-ci və 31.1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim İ. Nəcəfovun məruzəsini, maraqlı subyektlərin nümayəndələri Şirvan Apellyasiya Məhkəməsinin hakimi N. Mirzəyev və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri M. Bazıqovun, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Mərkəzi Bankının, Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun, Azərbaycan Notariat Palatasının mülahizələrini, ekspertlər Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru S. Süleymanlının və həmin kafedranın dosenti, hüquq üzrə fəlsəfə doktoru F. Mirzəyevanın rəylərini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Mülkiyyət hüququnun toxunulmazlığı prinsipinə uyğun olaraq Azərbaycan Respublikası Mülki Məcəlləsinin 312.4-cü maddəsi tərəflər arasında ipoteka müqaviləsi bağlanarkən ipoteka qoyanın əşya üzərində mülkiyyət hüquqlarından imtina etməsinə dair razılaşmanın qadağan edilməsini ehtiva edir.

İpoteka müqaviləsi üzrə ipoteka saxlayanın əmlak mənafeyinin qorunması, əsas öhdəliyin icrasının təmin olunmasında yarana biləcək təhlükənin qarşısının alınması baxımından "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 30.1 və 31.1-ci maddələri ipoteka saxlayanın yazılı razılığı olmadan ipoteka predmetinə sərəncam verilməsi haqqında əqdin etibarsızlığını müəyyən edir.

İpoteka saxlayanın ipoteka predmetinin özgəninkiləşdirilməsi ilə bağlı razılığın verilməsindən imtina barədə qərarı əsaslandırılmış olmalı və imtinanın səbəbləri göstərilməlidir. İpoteka qoyan öz növbəsində həmin qərarı məhkəmədə mübahisələndirə bilər.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# 6800 tələbəyə təhsil kredit verilib

***2022-2023-cü tədris ilinin birinci semestri üçün təhsil tələbə kreditinə müraciətlərin qəbulu davam edir. Abituriyent və tələbələr təhsil krediti almaq üçün notarial qaydada təsdiqlənmiş ərizə ilə elektron sistemə (www.e-ttkf.edu.az) müraciət edə bilərlər.***

Təhsil Nazirliyindən "Unikal"a verilən xəbərə görə, müraciətlərin qəbulu bayram günləri və həftəsonu da daxil olmaqla, hər gün həyata keçirilir.

Qeyd edilib ki, bu, Təhsil Tələbə Kredit Fondu fəaliyyətə başladığı tarixdən etibarən sayca 3-cü semestr üçün aparılan sənəd qəbuludur. Bu müddət ərzində Fonda daxil olan 11 000-dək elektron müraciət əsasında universitetlər tərəfindən təqdim edilən yerlərin sayına əsasən seçim meyarlarına uyğun gələn tələbələrlə ümumilikdə 6800-dən çox təhsil krediti müqaviləsi rəsmiləşdirilib və müvafiq vəsaitlər təhsil müəssisəsinə ödənilib.



Təhsil tələbə kreditinin verildiyi müddət tələbənin təhsil pilləsindən və təhsil səviyyəsindən asılıdır. Bu kredit dövlət dəstəyi ilə çox kiçik faizlərlə və uzun müddətə verilir. Belə ki, təhsil krediti ali təhsil pilləsinin bakalavriat səviyyəsində təhsil alan tələbəyə 14-21 il, magistratura səviyyəsində təhsil alan tələbəyə 12-18 il, orta ixtisas təhsili pilləsində və peşə təhsil pilləsinin subbakalavriat səviyyəsində təhsil alan tələbəyə 12-19 illik verilə bilir.

Təhsil tələbə krediti verilən zaman girov və zəmanət tələb olunmur. Təhsil tələbə kreditlərinin alınması üçün tələbə təhsil müəssisəsində əyani təhsil almalıdır. Sözügedən kredit hər semestr üzrə verilir və akademik borcu olanlar bundan yararlana bilmir. Təhsil müddətində tələbədən kredit geri tələb edilmir və faiz hesablanmır. Kreditə görə faizlərin hesablanmasında və kreditin qaytarılmasında təhsilin nəticələrindən asılı olaraq güzəştlər tətbiq olunur. Tələbə krediti məzun olduqdan və güzəşt dövrü bitdikdən sonra qaytarır.

# Bakı-Şamaxı yolunun bir hissəsi bağlandı

***Saat 10:00-dan etibarən Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 66-69-cu kilometrlik hissəsində hərəkət bir zolaq üzrə ( digər hərəkət zolaqları açıqdır ) hissə-hissə məhdudlaşdırılır.***

Bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən bildirilib. Məlumata görə, buna səbəb Şamaxı rayonu istiqamətində aparılacaq təmir işləridir.

Sürücülərdən təmir-bərpa işlərinin aparılmasına anlayışla yanaşmaları, sözügedən istiqamətdə yol nişanlarının tələblərinə və yol hərəkəti qaydalarına riayət etmələri xahiş olunur.

# Daha 10 ailə Ağalıya yola salındı



***Daha 10 ailə, təxminən 200 nəfər Zəngilanın Ağalı kəndinə yola salınıb.***

"Unikal" xəbər verir ki, Zəngilandan olan məcburi köçkünlərin Masazırda məskunlaşdıqları şəhərcikdən yola düşüblər.

Səhər saatlarında Zəngilan Rayon İcra Hakimiyyətinin binası qarşısına toplaşan hər kəs sevinc göz yaşı içində bir-birini təbrik edib, qucaqlaşaraq vidalaşıblar.

Zəngilan rayonu icra hakimiyyətinin başçısı Ramiz Həsənov bu münasibətlə bütün Azərbaycan xalqını təbrik edib. Zəngilanlılar, ağalılılar qarşısında çıxış edən R.Həsənov bildirib ki, Prezident, Ali Baş komandanın rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu Vətən Müharibəsində qələbə qazanıb. O, bu zəfəri bizə bəxş edən şəhidlərimizin ruhu qarşısında baş əydiyini bildirib, qazilərə can sağlığı diləyib.

Qeyd edək ki, proses 4 mərhələdən ibarətdir. Növbəti dəfə daha 11 ailə yola salınacaq.

# Ağalar Vəliyev Milli Qəhrəmanı xəstəxanada ziyarət etdi

***97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsindən Milli Məclisin deputatı Ağalar Vəliyev Milli Onkologiya Mərkəzində cərrahiyə əməliyyatı olunan Azərbaycanın Milli Qəhrəmanı Maşallah Abdullayevi ziyarət edib.***



"Unikal" xəbər verir ki, Mərkəzin rəhbərliyinin və Milli Qəhrəmanın ailə üzvlərinin iştirakı ilə keçən görüşdə millət vəkili vurğulayıb ki, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasında xüsusi xidmətləri olan müharibə iştirakçıları dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunub, onların sağlamlığının qorunması, eləcə də sosial problemlərinin həlli hər zaman diqqət mərkəzində saxlanılır.

Səmimi söhbət əsnasında Maşallah Abdullayevin Birinci Qarabağ müharibəsindəki şərəfli döyüş yolu xatırlanıb və onun xidmətlərinin dövlətimiz tərəfindən yüksək dəyərləndirildiyi məmnunluqla qeyd olunub. Ağalar Vəliyev Milli Qəhrəmanın səhhəti, əməliyyatdan sonrakı müalicəsinin gedişatı ilə maraqlanıb, mənəvi dəstəyini bildirərək ona şəfa diləyib və maliyyə yardımı çatdırıb.

Maşallah Abdullayev və ailə üzvləri göstərilən diqqətə və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

# Kamran Əliyev Mingəçevirdə vətəndaşları qəbul edəcək



***Prezident İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Kamran Əliyev cari il iyulun 28-də saat 10:00-da Mingəçevir şəhər prokurorluğunun inzibati binasında Mingəçevir şəhər, Yevlax və Ağdaş rayon sakinlərinin qəbulunu keçirəcək.***

Baş Prokurorluğun mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, vətəndaşların qəbulla bağlı qeydiyyatı və Mingəçevir şəhərinə gəlmələrinin təşkili müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon (şəhər) prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin (012) 361-14-07 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı, eləcə də prokurorluğun sosial şəbəkələrdəki səhifələri (instagram, facebook, telegram, twitter) vasitəsilə də qəbula yazıla bilərlər.

# Türkiyə XİN İraqa cavab verib



***Türkiyə İraqın Dohuk əyalətinin Zaho rayonunda baş verən və 8 nəfərin ölümü, 23 nəfərin isə yaralanmasına səbəb olan hücumu pisləyir.***

Bu barədə Türkiyə Xarici İşlər Nazirliyinin bəyanatında deyilir. Qeyd olunub ki, Türkiyə mülki şəxsləri hədəf alan hər cür hücuma qarşıdır.

"Türkiyə terrorla mübarizəni beynəlxalq hüquq normalarına uyğun olaraq, mülki əhalinin, infrastrukturun, tarixi-mədəni sərvətlərin və təbiətin qorunmasına son dərəcə həssas aparır. Günahsız insanları hədəf alan və terror təşkilatı tərəfindən törədildiyi hesab edilən bu cür hücumlar ölkəmizin terrorla mübarizədəki ədalətli və qətiyyətli mövqeyini hədəf almaqdadır", - deyə bildirilib.

Bəyanatda Türkiyənin həqiqəti üzə çıxarmaq üçün hər addımı atmağa hazır olduğu vurğulanıb.

"İraq dövlət rəsmilərini xain terror təşkilatının ritorikasının və təbliğatının təsiri altında bəyanatlar verməməyə və bu fəlakətli hadisənin əsl səbəbkarlarının üzə çıxarılmasında əməkdaşlığa dəvət edirik", - deyə bəyanatda bildirilir.

# İran Urmiya gölünün bərpasına 8 milyon dollara yaxın vəsait ayırıb



***İran Urmiya gölünün bərpası üçün 215 milyard tümən (7 820 000 dollar) ayırıb.***

Bunu İran Prezidentinin müavini Seyid Solət Murtəzəvi bu gün Nazirlər Kabinetinin iclasından sonra jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, Urmiya gölünün bərpası üzrə qərargahın bir neçə iclası keçirilib və gölün bərpası üçün vəsait ayrılıb: "Ümid edirik ki, gölün problemi yaxın vaxtlarda öz həllini tapacaq".

# Liz Trass Britaniya hərbçilərinin Ukrayna münaqişəsində birbaşa iştirakını dəstəkləmir



***Böyük Britaniyanın xarici işlər naziri Liz Trass Britaniya hərbçilərinin Ukrayna münaqişəsində birbaşa iştirakını dəstəkləmir.***

APA xəbər verir ki, bunu Mühafizəkarlar Partiyasının lideri və Baş nazir postu uğrunda Rişi Sunak ilə mübarizə aparan siyasətçi bu barədə BBC-yə müsahibəsində bildirib.

"Biz Ukraynanı dəstəkləmək üçün əlimizdən gələni edirik. Biz beynəlxalq koalisiyaya rəhbərlik etmişik, silah göndərmişik, sanksiyalar tətbiq edirik. Lakin mən Britaniya qoşunlarının birbaşa müdaxiləsini dəstəkləmirəm", - Liz Trass qeyd edib.

Qeyd edək ki, Mühafizəkarlar partiyasının lideri və hökumət başçısı postu uğrunda mübarizədə Liz Trass Maliyyə Nazirliyinin keçmiş rəhbəri Rişi Sunak ilə mübarizə aparır. İki namizədin taleyini Mühafizəkarlar Partiyasının 200 minə yaxın üzvü həll edəcək və hər iki namizəd yayda seçki kampaniyası aparacaqlar.

Yeni Baş nazirin adının sentyabrın 5-də açıqlanacağı gözlənilir.

# İtaliya Baş naziri istefa verdi



***İtaliya Prezidenti Sercio Mattarella Baş nazir Mario Draqinin istefasını qəbul edib.***

"Unikal" xəbər verir ki, Draqinin ikinci və bu dəfəki uğurlu istefası parlamentdə hökumətə etimadla bağlı keçirilən səsvermədən sonra baş verib.

Bildirilib ki, texniki baxımdan Draqinin kabineti etimad səsi ala bilib, lakin səs verməkdən imtina edən deputatları nəzərə alaraq, azlıq onu dəstəkləyib.

# Mərkəzi Asiya liderləri görüşüb, Tacikistanla Türkmənistan yeni sazişi imzalamayıb



***Qırğızıstanın İssık-Kul vilayətinin Çolpon-Ata şəhərində Mərkəzi Asiya ölkələri dövlət başçılarının IV Məşvərət İclası keçirilib.***

İclasa Qırğızıstan Prezidenti Sadır Japarov, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Tacikistan Prezidenti Emoməli Rəhmon, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev qatılıb.

Qırğızıstan Prezidenti çıxışında bildirib ki, beynəlxalq münasibətlərin mövcud böhranlı şəraitində bu ölkələr regionun ümumi maraqlarını dünya miqyasında qorumaq və təşviq etmək üçün daha da sıx əməkdaşlıq edəcəklər.

"Təəssüf ki, beynəlxalq mühit istər qlobal təhlükəsizlik, istərsə də dünya iqtisadiyyatı baxımından nikbinlik yaratmır. Bu gün Mərkəzi Asiya dövlətləri ənənəvi təhlükəsizlik çağırışları və təhdidləri ilə üzləşir və onların yeni hibrid formaları yaranıb. Bu baxımdan mən Mərkəzi Asiyada regional təhlükəsizliyə ciddi təsir göstərməkdə davam edən çox mühüm bir məsələyə toxunmaya bilmərəm. Əfqanıstandakı vəziyyəti nəzərdə tuturam. Təəssüf ki, orada vəziyyət mürəkkəb və gözlənilməz olaraq qalır", - Qırğızıstan Prezidenti qeyd edib.

O, Əfqanıstanla bağlı məsələlərdə region ölkələrini əməkdaşlığa çağırıb. Prezident su mənbələrinin səmərəli şəkildə birgə istifadəsi barədə də danışıb.

"Biz Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistan arasında Narın-Sırdərya çayının su və enerji ehtiyatlarının istifadəsi haqqında Saziş çərçivəsində əməkdaşlığın yenilənməsi və təkmilləşdirilməsinin tərəfdarıyıq ki, bu da su və enerjinin balanslaşdırılmış mübadiləsini nəzərdə tutur. Qırğızıstan həmçinin Mərkəzi Asiya ölkələrinin enerji təminatının və təhlükəsizliyinin artırılması məqsədilə hidroenergetika sektorunda əməkdaşlığın genişləndirilməsinin tərəfdarıdır", - Sadır Japarov vurğulayıb.

"Azadlıq Radiosu"nun Qırğızıstan bürosu rəsmi mənbələrə istinadən yazıb ki, Tacikistan və Türkmənistan Çolpon-Atada keçirilən sammitdə yeni Orta Asiya dostluq və əməkdaşlıq sazişini imzalamaqdan imtina edib. Sazişi yalnız Qırğızıstan, Qazaxıstan və Özbəkistan imzalayıb.

# ABŞ kəşfiyyatının direktoru: Rusiya qonşu ölkələrini təsir dairəsinə qaytarmağa çalışır



***"Rusiya Prezidenti Vladimir Putinin səhhəti barədə müxtəlif şayiələr yayılır, ancaq biz onun sandığımızdan da sağlam olduğunu deyə bilərik".***

"Report" xəbər verir ki, bunu ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) direktoru Vilyam Börns ölkəsinin Kolorado ştatının Aspen şəhərində keçirilən təhlükəsizlik məsələləri üzrə forumda bildirib.

Onun sözlərinə görə, Ukraynadakı müharibədə Rusiyanın 15 min ətrafında hərbçisi ölüb, bundan təxminən 3 dəfə çox hərbçisi yaralanıb: "Ukraynalılar da yaralanıb. Ancaq onların sayı azdır. Bununla belə, bu, əhəmiyyətli sayda itkidir".

V.Börns qeyd edib ki, Rusiya hakimiyyəti qonşu ölkələri təsir dairəsinə qaytarmağa və Rusiyanın böyük qüvvə kimi bərpa etməyə çalışır: "Ancaq bunu Ukrayna üzərində nəzarətsiz də etməyin mümkünlüyünə inanmırlar".

MKİ direktoru İranın nüvə proqramından da danışıb: "Kəşfiyyatımızın dəyərləndirməsinə əsasən, İran nüvə silahı yaratmaq istiqamətində səy göstərmir".

# Rusiya Avropaya verilən qazı bərpa etdi



***Rusiya və Avropa arasındakı əsas qaz boru kəməri qısa müddətli fasilədən sonra yenidən bərpa edilib.***

"Unikal" xarici mətbuata istinadn xəər verir ki, təmirlə əlaqəli yaranan 10 günlük fasilədən sonra qitəyə yenidən mavi yanacaq verilib.

Baltik dənizinin dibi ilə Almaniyaya gedən "Şimal axını 1" boru kəməri illik təmir işləri üçün iyulun 11-dən bağlanmışdı. Rusiyanın Ukraynadakı müharibəsi ilə yaranan gərginlik fonunda Almaniya rəsmiləri boru kəmərin in ümumiyyətlə açılmayacağından ehtiyat edirdilər.

Axının surətinin boru kəmərinin ötürmə qabiliyyətindən xeyli aşağı olacağı gözlənilirdi. lakin "Nord Stream" in məumatında təmirdən əvvəlki həcmdə qaz veriləcəyi qeyd edilib.

# Teymur Rəcəbov Azərbaycan millisində Olimpiadada iştirakdan imtina etdi



***Azərbaycanlı qrossmeyster Teymur Rəcəbov 44-cü Ümumdünya Şahmat Olimpiadasında millinin heyətində iştirakdan imtina edib.***

Apasport.az saytı xəbər verir ki, bu barədə məlumatı onun komanda yoldaşı Vasif Durarbəyli verib.

O, Rəcəbovu bu addımına görə qınayıb: “Komanda yoldaşı ilə problem olmaması üçün uzun müddətdir bu mövzuda fikir yazmaqdan yayınırdım. Birdən Teymur Rəcəbov fikrini dəyişər və millidə oynayar, amma bu baş vermədi. Adının nə qoyulacağını tezliklə bilərik”.

Durarbəylinin sözlərinə görə, Teymurun Hindistana yollanmaması yığmamızın medal qazanmaq şansını azaldacaq: “Bu dəfə Azərbaycanın ilk olimpiya medalı qazanmaq üçün tarixi şansı yaranmışdı. Prinsipcə, hələ də itməyib, lakin açıq danışmaq lazımdırsa, Azərbaycanda Rəcəbovu əvəzləyəcək şahmatçı yoxdur və onun getməməsi medal şansını xeyli azaldır. Bu məqamda xatırlatmaq yerinə düşər ki, Rəcəbovun bu mövqeyə çatması üçün dövlət milyonlar xərcləyib. Təbii ki, belə borcu ödəmək mümkünsüzdür. Fəqət, ən azı şəxsi şahmata davam edilən müddətdə yığmada oynamaq şərtdir. Şəxsi turnirlərdə hər kəs sırf öz mənfəəti, yığmada isə ümumi xeyir üçün iştirak edir”.

Millinin üzvü komanda yoldaşının geridə qalan müddət ərzində buna bənzər addımlara tez-tez əl atdığını da xatırladıb: “Kimisi Məmməd Arazın “Vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim”, - kəlamını əyani həyatımızda nümayiş etdirir. Kimisi də Rəcəbov kimi, milyonlarla yatırım alır, amma sonsuz mənəvi məsuliyyətinin olduğunu görünür, dərk etmir. 2019-cu ildə son anda yorğunluğu bəhanə edib komandanı yarı yolda qoymaq, 2021-ci ildə 8 oyun mübarizəsiz heç- heçələr, indiki imtina və hələ bildiyim, amma bölüşmədiyim bir çox qeyri-ictimai məlumatlar mənə bunu deməyə əsas verir. Qısası, məncə, Rəcəbov iki əli qanda olsa belə, özünü bu Olimpiadaya yetirməli idi! Etmədiyinə görə də onu qınayıram”.

Qeyd edək ki, Rəcəbovu Olimpiadada əvəzləyəcək şahmatçı da artıq bəlli olub. 35 yaşlı qrossmeysterin əvəzinə Hindistana kapitan kimi getməli olan Nicat Abasov Teymurun yerinə mübarizə aparacaq. Komandada onunla yanaşı, Şəhriyar Məmmədyarov, Rauf Məmmədov, Qədir Hüseynov və Vasif Durarbəyli yer alacaq.

# Merih Önal: “Qəbələ” 2 top fərqilə uduzacaq

***Azərbaycanın avrokuboklardakı təmsilçilərindən “Qəbələ” bu gün Konfrans Liqasında mübarizəyə başlayacaq.***

Apasport.az saytının məlumatına görə, Elmar Baxşıyevin yetirmələri II təsnifat mərhələsinin ilk matçını Macarıstanda yerli “Fehervar”a qarşı keçirəcək.

Futbol eksperti Merih Önal bu görüşlə bağlı təxminlərini bildirib. Türkiyəli mütəxəssis “Qəbələ”ni səfərdə şanssız hesab edir.



“Fehervar”ı “Qalatasaray”la yoxlama görüşündə izləmək şansımız oldu. Həmin matçda Macarıstan təmsilçisi ilə bağlı müəyyən təəssüratlar formalaşdı. Bu gün “Qəbələ”dən daha müdafiəyəmeyilli oyun, “Fehervar”dan isə yüksək templi təzyiq gözləyirəm.

Meydan sahibləri topa sahib olmağı xoşlayan komandadır. Bu da Azərbaycan təmsilçisinin işini daha da çətinləşdirəcək. “Fehervar” cütün taleyini ilk qarşılaşmada həll etməsə belə, ən azı Azərbaycana rahat yollanmaq üçün hücum futbolu sərgiləyəcək, daim qol axtarışında olacaq. Düşünürəm ki, aramsız həmlələr “Qəbələ”ni səhvə vadar edəcək. Macarların ən azı 2 top fərqilə qalib gələcəyini təxmin edirəm.

# Xavi ABŞ-a buraxıldı

***“Barselona”nın baş məşqçisi Xavi Ernandesin problemi yoluna qoyulub.***

Ispaniyalı çalışdırıcı kataloniyalıların ABŞ turnesinə qoşulub.

Xavi daha əvvəl üç dəfə İrana səfər etdiyi üçün komanda ilə birlikdə ABŞ-a buraxılmamışdı. O, “İnter Mayami” ilə yoxlama görüşünü (6:0) buraxsa da, artıq komandanın sükanı arxasındadır. 42 yaşlı mütəxəssis əzəli rəqib “Real”a qarşı Las-Veqasda keçiriləcək qarşılaşmaya komandasını hazırlaşdırır.

Qeyd edək ki, “Barselona” ilə “Real” arasında yoxlama görüşü iyulun 24-də keçiriləcək və Bakı vaxtı ilə saat 07:00-da start götürəcək.





# Mahir Emreli dönüşə hazırdır

***Azərbaycan millisinin hücumçusu Mahir Emreli zədəsini sağaldıb.***

Apasport.az saytının Xorvatiya mətbuatına istinadən məlumatına görə, Zaqreb “Dinamo”sunun forvardı artıq komanda ilə məşqlərə qoşulub.

Mövsümün startında çempionatın ilk tur və Çempionlar Liqasının təsnifat matçını buraxan 25 yaşlı forvard həftəsonu dönüşünü qeyd etməyə hazırdır. Bildirilib ki, yığmamızın üzvü iyulun 23-də çempionatın II turunda “Slaven”lə səfər qarşılaşmasında baş məşqçi Ante Çaçiçin sərəncamında olacaq.

Qeyd edək ki, “Slaven” - “Dinamo” matçı Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

# "Yuventus" yeni transferi ilə müqavilə imzaladı



***”Yuventus”un yeni transferi Qleyson Bremerin kluba keçidi rəsmiləşib.***

Turin təmsilçisinin saytına istinadən xəbər verir ki, braziliyalı müdafiəçi ilə 5 illik müqavilə imzalanıb.

Bu transfer üçün ”Yuventus” oyunçunun sabiq klubu ”Torino”ya 40+7 milyon avro təzminat ödəyib.

Qeyd edək ki, Bremer ötən mövsüm ”Torino”nun heyətində 110 oyuna çıxıb, 13 qol vurub və 5 məhsuldar ötürmə edib. Futbolçu ötən mövsüm A seriyasının ən yaxşı müdafiəçisi seçilib.

# PSJ-də futbolçulara qadağalar

***PSJ yemək zamanı telefondan istifadəni qadağan edib.***



Bu barədə ”L’Equipe” nəşri məlumat yayıb. Bildirilib ki, Paris təmsiçisinin baş məşqçisi Kristof Qaltye komandada yeni qaydalar tətbiq edib. Bundan sonra məşqə gecikmək də mümkün olmayacaq. Kimsə üzrlü səbəb olmadan məşqə gecikirsə, o zaman hazırlığa buraxılmayacaq.

Qeyd edək ki, PSJ Fransa çempionatının 2022/2023 mövsümününün ilk turunun matçında ”Klermon”la qarşılaşacaq. Oyun avqustun 6-da keçiriləcək.

# "Biz tam hazırıq" - "Qəbələ"nin legioneri

***”Qəbələ”nin futbolçusu Ruan Renato Konfrans Liqasının 2-ci təsnifat mərhələsində ”Fehervar”la səfər oyunu öncəsi paylaşım edib.***

Braziliyalı müdafiəçi özünün ”İnstaqram” hesabında yazıb: ”Hamımız yeni mövsümə hazırıq. Mövsümün ən vacib oyununa çıxırıq. Biz tam hazırıq. Biz birlikdə daha güclüyük, irəli ”Qəbələ”!”.

Qeyd edək ki, bu gün keçiriləcək ”Fehervar” (Macarıstan) - ”Qəbələ” görüşü Bakı vaxtı ilə saat 21:00-da başlayacaq.